# Dostunu aradı

Lukaşenko və Nazarbayev arasında telefon danışığı olub



**Belarus Prezidenti Aleksandr Lukaşenko və Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev arasında telefon danışığı olub.**

Trend-in məlumatına görə, bu barədə "BELTA"ya Belarus liderinin mətbuat xidmətindən bildiriblər.

Məlumata əsasən, telefon danışığı zamanı tərəflər Qazaxıstandakı vəziyyəti ətraflı müzakirə ediblər.

## Blinken: "Qazaxıstan hakimiyyəti KTMT olmadan da iğtişaşların öhdəsindən gələ bilər"



**"ABŞ hesab edir ki, Qazaxıstan hakimiyyəti Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) iştirakı olmadan da təkbaşına iğtişaşların qarşısını ala bilər".**

Bunu ABŞ dövlət katibi Entoni Blinken mətbuat konfransında bildirib.

"Qazaxıstanın təcili yardım üçün KTMT-yə müraciətinin mahiyyəti, bunu nə üçün etdiyi ilə bağlı suallarımız var. Biz bu məsələ ilə bağlı daha ətraflı məlumat almağa çalışırıq.

(səh.2)



# Təkliflər hazırlanır

Ölkədə köhnə avtomobillərin istifadəsi məhdudlaşdırılacaq

Bu ilin iyun ayının 1-dək istismarı ekoloji cəhətdən zərərli sayılan fiziki və mənəvi köhnəlmiş nəqliyyat vasitələrinin idxalının və istifadəsinin məhdudlaşdırılması, ekoloji təmiz və təhlükəsizlik xüsusiyyətləri yüksək olan nəqliyyat vasitələrinin idxalının, ölkə ərazisində alqı-satqısının, habelə sair formada dövriyyəsinin stimullaşdırılması məqsədilə aksiz dərəcələrinin mərhələli şəkildə adekvat olaraq dəyişdirilməsinə dair təkliflər hazırlanacaq.

Qeyd olunan məsələ "Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması və təşviqi ilə bağlı qiymətləndirmələrin aparılması, təkliflərin hazırlanması və həyata keçirilməsi üzrə 2022-ci il üçün Yol Xəritəsi"ndə əks olunub.

(səh.2)


№ 3 (5525), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 8 yanvar 2022-ci il (şənbə)




## Almaniya, Fransa və Avropa İttifaqı Qazaxıstan vətəndaşlarının hüquqlarını müdafiə etməyə çağırıb

**Qazaxıstanda baş verən kütləvi etirazlar fonunda Almaniya hökuməti ölkədəki bütün tərəfləri təmkinli və tədbirli olmağa çağırıb. "Report" xəbər verir ki, bunu Almaniya hökumətinin sözçüsünün müavini Kristian Hoffman bəyan edib.**

Onun sözlərinə görə, rəsmi Berlin mövcud olan zorakılıq hadisələrindən dərin narahatdır: "Biz əminik ki, zorakılıq heç vaxt adekvat cavab ola bilməz. Ona görə də biz bütün tərəfləri gərginliyi azaltmağa və vəziyyəti sülh yolu ilə həll etməyə çağırırıq".

Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyi Qazaxıstanda təhlükəsizlik qüvvələrinə və orduya xəbərdarlıq edilmədən atəş açmaq əmri ilə bağlı bütün xəbərləri diqqətlə öyrənəcəyini açıqlayıb.

"Almaniya hökumətinin nöqteyi-nəzərindən açıq şəkildə bildirilməlidir ki, mülki əhaliyə qarşı xüsusən də silahlı qüvvələr iştirakı ilə hərbi silahlardan istifadə ətmək ən son çarə olmalıdır".

Qeyd olunub ki, Qazaxıstan hökuməti və bütün yüksək vəzifəli məmurlar mülki şəxslərin müdafiəsinə cavabdehdirlər.

"Kim xəbərdarlıq etmədən, öldürmək üçün nümayişçilərə atəş açırsa, sivil dövlətlər liqasını tərk edib" , - deyə Almaniya Federativ Respublikasının ədliyyə naziri Marko Buşman tviterdə yazıb.

Fransanın Avropa İttifaqı Şurasına sədrliyi ilə əlaqədar Parisdə görüşən Avropa Komissiyasının prezidenti Ursula fon der Leyen və Fransa prezidenti Emmanuel Makron da Qazaxıstanda zorakılığa son qoymağa çağırıblar.

Mərkəzi Asiya ölkəsində vəziyyətin gərginləşməsini narahatlıqla izlədiyini deyən Avropa Komissiyasının rəhbəri tərəfləri zorakılığa son qoymağa çağırıb və əmin edib ki, Aİ mümkün olan köməyi etməyə hazırdır.

Qadın diplomat vurğulayıb ki, Qazaxıstan xalqının hüquqları və təhlükəsizliyi qorunmalıdır.

# Prezident Tokayev Kremlə güvənir

Dövlət başçısı üsyançılara qarşı xəbərdarlıqsız atəş açmaq əmri verib





**Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev xalqa növbəti müraciətində təhlükəsizlik qüvvələrinə xəbərdarlıqsız atəş açmaq əmrini verdiyini deyib. Etirazçıları "terrorçu" adlandıran prezident ölkədə konstitusion hakimiyyətin tədricən bərpa olunduğunu, situasiyanın nəzarətə götürüldüyünü qeyd edib:**

"Bizim ölkəmizdə antiterror əməliyyatı davam edir. Mən hüquq-mühafizə orqanlarına və orduya xəbərdarlıqsız atəş açmaq əmri vermişəm". Prezident hadisələr zamanı yüzlərlə dinc sakinin, hərbçinin yaralandığını və öldürüldüyünü əlavə edib. Tokayev hadisələrdə iştirak edən bütün şəxslərin ən sərt şəkildə cəzalandırılacağına söz verib. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sülhməramlı kontingenti Qazaxıstanın hüquq-mühafizə orqanları ilə birlikdə Almatı aeroportunu nəzarətə götürüb. İğtişaşlar nəticəsində ölkəyə dəyən zərərin ilkin hesablanmış məbləği təxminən 100 mln. ABŞ dolları təşkil edib. Qazaxıstanın Milli Sahibkarlar Palatasının məlumatına görə, zərərin böyük hissəsi ticarət, ictimai iaşə, nəqliyyat, xidmət subyektləri, eləcə də maliyyə sektoruna dəyib. Ümumilikdə 519-a yaxın subyekt ziyan görüb.

(səh.4)



## Hibrid senarinin gizlinləri açılır

FSB: Qazaxıstan hadisələrində məhbuslardan istifadə olunub

**Qazaxıstanda təhlükəsizlik qüvvələri etirazı gözdən salmaq və Rusiya qoşunlarının Qazaxıstana yeridilməsi üçün əsas əldə etmək niyyəti ilə məhbuslardan istifadə edib.**

Bu haqda "Gulagu.net"in təsisçisi Vladimir Osechkin məlumat yayıb. O, FSB mənbəsindən aldığı məktubun mətnini dərc edir: "Vladimir, günortan xeyir! Demək olar ki, iki gün şöbələrdə qaldıq. Qazaxıstanda baş verənlər şok effekti yaratdı, çünki cəmi 2 gün əvvəl hər şeyin öz-özünə sakitləşəcəyinə əmin idik.

(səh.2)

# Milonov Qarabağda "rus icması" planının aparıcı fiqurudur

Planın indi aktivləşdirilməsi səbəbsiz deyil

**Rusiya Dövlət Dumasının deputatı Vitali Milonov Azərbaycan ərazilərinə növbəti dəfə qanunsuz səfər edib.**

Hakim "Vahid Rusiya" partiyasının üzvü Yeni il günlərində Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan Azərbaycan ərazilərinə qeyri-qanuni səfər edərək, orada bir sıra görüşlər keçirib.

Onun bu addımı Azərbaycan rəhbərliyinin kəskin etirazına səbəb olub.

(səh.4)



## Daha 547 nəfər koronavirusa yoluxub

9 nəfər vəfat edib, 631 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 547 yeni yoluxma faktı qeydə alınıb, 631 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 620 049 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 604 537 nəfər müalicə olunaraq sağalıb, 8 431 nəfər vəfat edib, aktiv xəstə sayı 7081 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 139, indiyədək isə ümumilikdə 5 922 366 test aparılıb.*

## "Çox gözəl mənzərədir"

İcra başçısının müavini fotodan danışdı



**Astara rayonunun Diqo kəndində nəvəsini belində məktəbə aparan nənənin fotosu sosial mediada müzakirə obyektinə çevrilib.**

Fotoda əks olunan mövcud yolun kənd sakinləri üçün çətinlik yaratdığı bildirilib.

Məsələ ilə bağlı Astara Rayon İcra Hakimiyyəti başçının müavini Firəngiz Sadıxova bildirib ki, kəndin sakinlərinin bir qisminin evləri dağın başında yerləşir və bu əraziyə yol çəkmək mümkün deyil...

(səh.4)



## "Ox yaydan çıxıb"

Türkiyə və Rusiya "3+3" formatını reallaşdırmaqda qərarlıdır

(səh.3)

## Nə məktəblər düzələcək, nə bağçalar

Təyinatlar tanışlıq, rüşvət müqabilində aparılır



(səh.7)



## Telekanallara ayrılan 4 milyon manat vəsait hesablarına köçürülüb

**Milli Televiziya və Radio Şurasına (MTRŞ) hesabat ilində illik plana əsasən dövlət büdcəsindən 1 milyon 659 min manat vəsait ayrılıb.**

Bu barədə şuranın maliyyə hesabatında deyilir.

Qeyd edilir ki, 2021-ci il ərzində büdcədən maliyyələşdirilmiş vəsait 1milyon 480 min manat vəsait təyinatı üzrə istifadə olunub.

"Azərbaycan Prezidentinin 29 dekabr 2021-ci il tarixli sərəncamına əsasən Azərbaycanda fəaliyyət göstərən özəl ümumölkə teleradio yayımçılarına "Azerspace-1" peyki və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi məqsədilə Milli Televiziya və Radio Şurasına dörd milyon manat vəsait ayrılıb və səkkiz özəl teleradio yayımçılarının hesabına köçürülüb.

Dövlət büdcəsindən maliyyələşmiş vəsaitdən 179,3 min manat vəsait büdcəyə qaytarılıb", - məlumatda qeyd edilir.

## "Zorakılıqdan çəkinməyə və dialoq aparmağa çağırırıq"

### NATO Qazaxıstanda baş verənlərə münasibət bildirib

**NATO Qazaxıstandakı vəziyyətdən narahatdır.**

APA-nın xəbərinə görə, bu barədə NATO Baş katibi Yens Stoltenberqin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina "Twitter"də bildirib. "NATO Qazaxıstandakı vəziyyətlə, insan itəfatı ilə bağlı ciddi narahatlığını bölüşür. Biz bütün tərəfləri təmkinli olmağa, zorakılıqdan çəkinməyə və dialoq aparmağa çağırırıq. Səlahiyyətlilər beynəlxalq insan hüquqları öhdəliklərinə, o cümlədən dinc etiraz hüququna hörmət etməlidir", - NATO Baş katibinin xüsusi nümayəndəsi bildirib.

# Təkliflər hazırlanır

### Ölkədə köhnə avtomobillərin istifadəsi məhdudlaşdırılacaq



**Bu ilin iyun ayının 1-dək istismarı ekoloji cəhətdən zərərli sayılan fiziki və mənəvi köhnəlmiş nəqliyyat vasitələrinin idxalının və istifadəsinin məhdudlaşdırılması, ekoloji təmiz və təhlükəsizlik xüsusiyyətləri yüksək olan nəqliyyat vasitələrinin idxalının, ölkə ərazisində alqı-satqısının, habelə sair formada dövriyyəsinin stimullaşdırılması məqsədilə aksiz dərəcələrinin mərhələli şəkildə adekvat olaraq dəyişdirilməsinə dair təkliflər hazırlanacaq.**

"APA-Economics" xəbər verir ki, qeyd olunan məsələ "Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması və təşviqi ilə bağlı qiymətləndirmələrin aparılması, təkliflərin hazırlanması və həyata keçirilməsi üzrə 2022-ci il üçün Yol Xəritəsi"ndə əks olunub.

Müvafiq təkliflərin hazırlanması Dövlət Gömrük Komitəsinə (DGK), İqtisadiyyat (o cümlədən Dövlət Vergi Xidmətinə, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə) və Maliyyə nazirliklərinə həvalə olunub.

Bununla yanaşı, cari ilin birinci rübünün sonunadək Azərbaycanda elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması məqsədilə onların, o cümlədən sürətli enerji doldurucu qurğu və avadanlıqların gömrük idxal rüsumlarına əlavə güzəştlərin tətbiqi imkanları qiymətləndiriləcək. Qiymətləndirmə üç dövlət qurumu tərəfindən (DGK, Maliyyə və İqtisadiyyat nazirlikləri) aparılacaq.

*Xatırladaq ki, ötən ilin sonunda DGK-nin sədri Səfər Mehdiyev ekoloji tələbləri nəzərə alaraq istehsalı 7 ildən çox olan avtomobillərin ölkəyə gətirilməsi zamanı onlara daha yüksək rüsumların tətbiq edilməsinin təklif olunduğunu bildirmişdi.*

# Pandemiya başlayandan...

### Dünyada 1940 jurnalist koronavirusdan ölüb



**2020-ci ilin martından bugünədək 94 ölkədən azı 1 940 jurnalist koronavirus infeksiyası nəticəsində dünyasını dəyişib.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə beynəlxalq qeyri-hökumət təşkilatı "Press Emblem Campaign" (PEC) hesabat açıqlayıb.

Siyahıda birinci yerdə Banqladeş (68), ikinci yerdə ABŞ (67), üçüncü yerdə isə İtaliya (61) gəlir.Rusiyada koronavirusdan 42 media işçisi ölüb. İran isə 34 nəfərlə siyahıda ilk onluqdan sonra qərarlaşıb.

Təşkilatın fikrincə, media işçiləri pandemiya zamanı xüsusi risk altındadır, çünki onlar hadisə yerindən məlumat verməlidirlər.

2004-cü ildə yaradılmış "Press Emblem Campaign" BMT-də məsləhətçi statusa malikdir.

# Blinken: "Qazaxıstan hakimiyyəti KTMT olmadan da iğtişaşların öhdəsindən gələ bilər"



**"ABŞ hesab edir ki, Qazaxıstan hakimiyyəti Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) iştirakı olmadan da təkbaşına iğtişaşların qarşısını ala bilər".**

APA xəbər verir ki, bunu ABŞ dövlət katibi Entoni Blinken mətbuat konfransında bildirib.

"Qazaxıstanın təcili yardım üçün KTMT-yə müraciətinin mahiyyəti, bunu nə üçün etdiyi ilə bağlı suallarımız var. Biz bu məsələ ilə bağlı daha ətraflı məlumat almağa çalışırıq. Mənə elə gəlir ki, Qazaxıstan hakimiyyətinin və hökumətinin etirazlarla bağlı vəziyyətlə düzgün məşğul olmaq, asayişi qorumaq, etirazçıların hüquqlarına hörmətlə yanaşmaq potensialı şübhəsizdir. Qazaxıstan liderlərinin niyə hər hansı bir kənar yardıma ehtiyac duyduqları bizə aydın deyil", deyə Blinken əlavə edib.

ABŞ rəsmisi bildirib ki, Vaşinqton KTMT sülhməramlılarını və Qazaxıstan təhlükəsizlik qüvvələrini etirazçıların hüquqlarına hörmət etməyə çağırır.

Eyni zamanda, Blinken Qazaxıstandakı hazırkı iğtişaşların əsasında iqtisadi və siyasi səbəblərin dayandığı qənaətində olduğunu bildirib: "Biz, əlbəttə ki, KTMT sülhməramlı qüvvələrini və Qazaxıstan hüquq-mühafizə orqanlarını beynəlxalq insan hüquqlarına, sülh yolu ilə həlli dəstəkləyən standartlara hörmət etməyə çağırırıq. Yenə də ümid edirik ki, Qazaxıstan hökuməti özü etirazlara səbəb olan əsaslı iqtisadi və siyasi məsələləri tez bir zamanda həll edə bilər".

# Gündəmdə Qazaxıstandır

### Putin və Paşinyan müzakirə aparıb



**Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan yanvarın 7-də telefon danışığı zamanı Qazaxıstandakı vəziyyəti müzakirə ediblər.**

"Şərq" xəbər verir ki, bu barədə "İzvestiya" Ermənistan Nazirlər Kabinetinin mətbuat xidmətinə istinadən xəbər verir.

Məlumatda qeyd edilib ki, telefon danışığı zamanı Nikol Paşinyan və Vladimir Putin Qazaxıstandakı mövcud vəziyyəti, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində birgə addımların atılması prosesindən danışıblar.

Qeyd edək ki, Qazaxıstanda etirazlar yanvarın 2-də başlayıb. Mitinq iştirakçıları maye qazın bahalaşmasına qarşı çıxıblar. Qazaxıstanın Prezidenti Tokayev kömək üçün KTMT-yə müraciət edib. KTMT sədri postunu tutan Ermənistanın baş naziri Nikol Paşinyan qurumun həmin ölkədə vəziyyəti sabitləşdirmək və normallaşdırmaq üçün respublikaya sülhməramlı qüvvələr göndərəcəyini bəyan edib.

**Xanlar ƏLİBƏY**

# Hibrid senarinin gizlinləri açılır

### FSB: Qazaxıstan hadisələrində məhbuslardan istifadə olunub



**Qazaxıstanda təhlükəsizlik qüvvələri etirazı gözdən salmaq və Rusiya qoşunlarının Qazaxıstana yeridilməsi üçün əsas əldə etmək niyyəti ilə məhbuslardan istifadə edib. Bu haqda "Gulagu.net"in təsisçisi Vladimir Osechkin məlumat yayıb. O, FSB mənbəsindən aldığı məktubun mətnini dərc edir:**

"Vladimir, günortan xeyir! Demək olar ki, iki gün şöbələrdə qaldıq. Qazaxıstanda baş verənlər şok effekti yaratdı, çünki cəmi 2 gün əvvəl hər şeyin öz-özünə sakitləşəcəyinə əmin idik. Əsas məsələyə gəlincə deyim ki, Qazaxıstanda insanlarımız işgəncə mövzusu ilə birbaşa əlaqəli olan bir əsas məqamı sınaqdan keçirdilər. Etiraz dalğası təhlükəsizlik qüvvələrinə münasibətdə dominant həddə çatan kimi, talanların yaxşı əlaqələndirilmiş təşkili üçün xüsusi olaraq Qazaxıstan həbsxanalarından azad edilmiş məhbuslar cəlb edildi. Təhlükəsizlik qüvvələrinə hücumların təşkili məhz onlara həvalə edilib. *(Bu, həqiqətən də baş verdi).* Kənar müşahidəçi üçün yararsız olan polis bölməsinə basqın etmək həm də patronların atılmasının əlverişli formasıdır. Çünki əslində orada gözlənilən idi. Buna görə də, öldürülənlərin sayılması ilə bağlı "problemlər" var.

Tapşırılan vəzifə baxımından onlar öz işlərini mükəmməl başa vurublar. Xeyli sayda sənədləşdirilmiş talan faktları mövcuddur. Hüquq-mühafizə orqanlarına hücumun təsdiqi var. Təhlükəsizlik işçilərinə qarşı vəhşicəsinə represiya faktları ortadadır. Başları kəsilmiş meyitlər və kəsmə prosesi ilə bağlı arxiv üçün videolar əldə olunub. Bu, xarici qüvvələrin yeridilməsi üçün lazımi əsas yaradır, adi etirazçıları ruhdan salır, siyasi etirazı həzm oluna bilən poqrom formasına çevirir. Qərarsız qazaxların sosial empatiyasına mane olur.

Buna görə ən şiddətli talanlar, saytlara qanlı hücumlar və etirazçılara qarşı amansız atəş yalnız paytaxtda idi. Digər şəhərlərdə isə demək olar ki, hər yerdə hər şey fərqli idi, çünki bütün patronlar yalnız nəzarət şəhərinə gətirilib.

Şəxsən mən təkrar emal edilmiş patronlara zərrə qədər yazığım gəlmir - onlar "siyasi kapo" rolunu oynayırdılar. Onlar həqiqətən patronlardır.

Lakin biz bu təcrübəni "5+" kimi qiymətləndirdik. Nəzərə alsaq ki, Ukrayna böhranının başlamasına heç nə qalmayıb və həll yollarından daha çox problemimiz var. Patronların bu cür aktivləşdirilməsi variantı Rusiyanın bir yerində istifadə oluna bilər. Ukraynada Qazaxıstan senarisi təkrarlansa, camaat özü binaları sökməyə başlayacaq.

Əminəm ki, siz məni başa düşürsünüz: məhbuslar məsuliyyətin qarşılıqlı olduğunu dərk etməlidirlər. Belarusda belə bir senarinin işlənməsinə imkan vermədilər, amma Qazaxıstanda nəticə rəhbərlik üçün heyrətamiz oldu.

Bir daha təkrar etməyə hazıram ki, bizim mərc etməyi çox sevdiyimiz idarə oluna bilən böhranlar sisteminə inanmıram. Yenə srağagün rəhbərlik Qazaxıstanda hər şeyin tez sönəcəyinə əmin idi. Biz sizə kömək etməyə başladıq, çünki əminik ki, təhlükəsizlik qüvvələrinə və FSB zabitlərinə qarşı zorakılıq öz sahillərini itirə və onları söndürmədən ölkəni yandıra bilər.

Əgər onlar qaçmış qarətçi məhkumlarla senarini həyata keçirmək istəyirlərsə, bütün ümid odur ki, oğru dünyası Qazaxıstan senarisinin inkişafına imkan verməyəcək.

Oğru dünyasında isə oğrular sərhədlərə məhəl qoymadan bir-biri ilə ünsiyyət qururlar. Məhkumların soyğunçuluq və talan üçün istifadə edilməsi ilə bağlı məlumatı gizlətmək tamamilə qeyri-mümkün olacaq. Bütün ümidlər oğrularadır, onlar bunu ictimailəşdirəcəklər.

Son 2 ildə bizə etibarlı məlumat verən bu mənbəyə inanmamaq üçün heç bir səbəbimiz yoxdur. Məktubun tarixi əhəmiyyətini nəzərə alaraq tam mətnin dərc olunmasını vacib hesab edirik. Bu məktubdan belə çıxır ki, əvvəldən Rusiya və Qazaxıstanın xüsusi xidmət orqanları hibrid senarini həyata keçirməyi planlaşdırıblar.

**Ayyət Əhməd**

## Bağçaların Təhsil Nazirliyinin tabeliyinə verilməsi...

### Təhvil-təslim işləri aparılır

**Təhsil Nazirliyi məktəbəqədər təhsil müəssisələri qurumun tabeliyinə verildikdən sonra hansı işlərin görüldüyünü açıqlayıb.**

Nazirlikdən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, hazırda Təhsil Nazirliyi bu mövzuda müvafiq qurumlarla təhvil-təslim işləri aparır.

Qeyd edək ki, Prezident İlham Əliyevin "Dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında" sərəncamına əsasən, yerli icra hakimiyyəti orqanlarının (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyətinin, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyətinin) tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri (uşaq evləri istisna olmaqla) Təhsil Nazirliyinin tabeliyinə verilib.

## "Xalqın sosial vəziyyəti yaxşılaşacaq"

### Tokayev konkret islahat planı təklif edəcək



**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ölkədəki iğtişaşlar fonunda islahatlar planı və onların həyata keçirilməsi üçün konkret addımlar təklif edəcəyinə söz verib.**

"Şərq" "Ria novosti"yə istinadən xəbər verir ki, ölkə prezidenti çıxışı zamanı xalqa mühüm vədlər verib.

"Mən tam əminəm ki, müqəddəs vətənimiz - Qazaxıstan dünya xəritəsində güclü dövlətə çevriləcək. İqtisadiyyatımız dinamik inkişaf edəcək. Vətəndaşlarımızın sosial vəziyyəti yaxşılaşacaq. Bu məqsədlərə nail olmaq üçün konkret islahat planı təklif edəcəyəm. Həyata keçirilməsi üçün isə qəti addımlar atılacaq".

*Qeyd edək ki, Qazaxıstanda kütləvi etirazlar 2022-ci ilin ilk günlərində başlayıb. Daha sonra ölkənin Janaozen və Aktau şəhərlərinin sakinləri maye qazın qiymətinin iki dəfə artırılmasına qarşı çıxıblar, sonra etiraz dalğası digər şəhərlərə də yayılıb. Yanvarın 5-də Prezident Qasım-Jomart Tokayev hökuməti istefaya göndərib və respublikanın Təhlükəsizlik Şurasına rəhbərlik edib.*

**Xanlar**

# Türk Dövlətlər Təşkilatının strukturları hələ qurulmayıb

### Ona görə Qazaxıstandakı hadisələrə bir az gec qaldı

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Qazaxıstan Prezidenti Qasım-Comart Tokayev arasında telefon danışığı baş tutub. Liderlər Qazaxıstandakı son hadisələri müzakirə ediblər.**

Türkiyə dövlət başçısı Qazaxıstanda baş verən olayları diqqətlə izlədiyini və Qazaxıstanla həmrəy olduğunu qeyd edib. Danışıqlar zamanı Ərdoğan Qazaxıstanın yeni hökumətinin tezliklə formalaşmasına ümid etdiyini bildirib: "Türkiyə lazım gələrsə, Qazaxıstanla təcrübə və texniki biliklərini bölüşməyə hazırdır". Bundan əlavə, Ərdoğan Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin digər liderləri - Azərbaycan, Qırğızıstan və Özbəkistan dövlət başçıları ilə əlaqə saxlayıb. Ərdoğan dialoq vasitəsilə problemlərin öhdəsindən gələcəyinə əmin olduğunu ifadə edib.



**Qazaxıstanda baş verən son hadisələri "Şərq"ə şərh edən siyasi şərhçi Azər Həsrət Türk Dövlətlər Təşkilatının bu proseslərə anında müdaxilə etmək üçün hələ hazır olmadığını bildirib:** "Qazaxıstanda baş verən hadisələrə türk dövlətlərinin daha çevik reaksiya verməsini hamımız gözləyirdik. Əlbəttə ki, türk dövlətlərinin bu prosesdə daha öndə görünməsi arzuolunan idi. Lakin, bir qədər gecikdilər. Bu da belə hallarda reaksiya vermək üçün çevik mexanizmlərin olmamasından irəli gəlir. Türk Dövlətləri Təşkilatı yenidir. Bu vaxta qədər sadəcə bir şura vardı - Türk Şurası. O da adından göründüyü kimi məşvərətçi bir qurum idi. İndi isə təşkilat qurulub və onun strukturları hələ tam formalaşmayıb. Yəni daha çevik hərəkət etməsi üçün gərəkli strukturları yoxdur. Buna baxmayaraq türk dövlətləri baş verən hadisələri heç də gözardı etmirlər. İstər Qırğızıstan prezidenti, istərsə də Özbəkistan prezidenti, eləcə də, Azərbaycan və Türkiyə rəhbərləri baş verənlərlə daimi maraqlanır, öz aralarında məsləhətləşmələr aparır. Qazaxıstan dövlətinə bu və ya digər şəkildə edə biləcəkləri yardımları müzakirə edirlər".

**Azər Həsrət hazırda baş verənlərlə, yaxud buna bənzər hadisələrlə bağlı daha çevik reaksiya verə bilmək üçün mümkün qədər tez zamanda uyğun strukturları formalaşdırmaq lazım olduğunu vurğulayıb:** "Burada ortaq sülhyaratma qüvvələri də istisna deyil. Eyni zamanda belə hadisələr baş verərkən tərəflər arasında vasitəçilik edəcək struktur vahidləri olmalıdır. Biz artıq bu təşkilatın birlik zərurətinin daha da gərəkli olduğunun fərqindəyik. Bizim strukturlarımız işləmədiyinə görə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) bu prosesə bizdən daha öncə müdaxilə etdi. Qazaxıstan da türk dövlətləri təşkilatının müdaxilə imkanlarının olmadığını nəzərə alaraq KTMT-yə müraciət etməyə məcbur qaldı. İndiki şəraitdə biz Qazaxıstanı Rusiyanın işğalına buraxmış olduq".

**Sənan İsmayıl**

# Ankara Vaşinqtona meydan oxuyur

## Türkiyə silah bazarında əsas oyunçuya çevrilib



**İsmayıl Qocayev**

**”Türkiyə artıq istehlak etmir, istehsal edir, idxal etmir, ixrac edir”. Bu sözləri Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar deyib. Nazir bildirib ki, müdafiə sahəsində güclü və müstəqil olmayan millətlərin gələcəklərini etibarlı şəkildə qurması qeyri-mümkündür.**

Hərbi sənaye obyektlərinin rəsmi açılışında iştirak edən Akar vurğulayıb ki, Türkiyə müdafiə və təhlükəsizliyini başqa ölkələrin iradəsinə uyğun deyil, öz imkanları ilə təmin edir. Eyni zamanda dost və qardaş dövlətlərin ehtiyaclarını ödəyir. Nazir qeyd edib ki, Türkiyə yerli avtomatlarını, ağıllı dəqiq döyüş sursatlarını, milli dəniz artilleriyasını, yaylım atəşli reaktiv sistemləri, silahlı PUA, ATAK helikopterlərini, freqatlarını və döyüş gəmilərini layihələndirmək, istehsal və ixrac etmək səviyyəsinə çatıb.

Ötən gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da deyib ki, Türkiyə PUA istehsalında ilk üçlükdədir. Ərdoğan Türkiyənin öz hərbi gəmisini hazırlayan 10 ölkə arasında yer aldığını deyib: ”Türkiyə silahlı, silahsız, hücum xarakterli pilotsuz uçuş aparatları istehsalında dünyada ilk 3 ölkə arasındadır. 2023-cü ildə isə milli döyüş təyyarəmizin təqdimatı keçiriləcək”.

**Türkiyənin hərbi sahəni prioritet elan etməsi, xüsusən müasir silah-sursat istehsalına xüsusi önəm verməsi ilə bağlı ”Şərq”ə danışan politoloq Azər Rəşidoğlu deyib ki, Türkiyə bu sahədə yeni oyunçudur. Analitik bildirib ki, İsrail və ABŞ hərbi dronların istehsalına 1970-80-ci illərdə başlayıb, Çin və Fransa isə çoxdan bazardadır:** ”Hazırda ən azı 95 ölkə hərbi PUA-lar istehsal etməyə çalışır. Ən azı 60-ölkədə isə 267 hərbi drondan istifadə olunur. Türkiyə son zamanlar bu sahəyə üstünlük verib. Ankara dron sahəsindəki layihələndirmə, proqram təminatı və istifadə qaydaları baxımından aparıcı ölkələrin ilk beşliyinə daxil ola bilib. Türkiyə ordusunun PKK ilə mübarizədə tez-tez dronlardan istifadə etməsi onların istehsalına əhəmiyyətli təsir göstərib. Ankara ABŞ-dan aldığı ”GNAT 750” dronlarının köhnəlməsinin ardınca, 2000-ci ildən etibarən İsrailə üz tutdu. Ancaq buradan alınan ”Heron” tipli PUA-larla daima problemlər yaşanırdı. Bəzi dronlar qəzaya uğrayaraq yararsız hala gəlirdi. Digərləri isə texniki səbəblər üzündən uça bilmirdi”.

**A.Rəşidoğlu vurğulayıb ki, Türkiyənin aparıcı dron istehsalçıları - TUSAŞ və ”Baykar” şirkəti qısa zamanda böyük uğur qazana bildi: ”Baykar”ın istehsal etdiyi ”Bayraktar TB2” pilotsuz təyyarəsi ən yaxşı dronlardan biri kimi tanınır.**

O, raket daşıya bilən ən kiçik SPUA-lardan biri olduğu üçün öz rəqiblərindən seçilir. ”Bayraktar TB2” davamlı hava nəzarəti və kəşfiyyat vəzifələrini yerinə yetirən PUA hesab olunur. Amerikaya meydan oxuyan Türkiyə artıq silah bazarında əsas oyunçuya çevrilib. Ankara dünya silah bazarında söz sahiblərindən biridir və bu da böyük üstünlük deməkdir”.



# Şəhid ailələri və müharibə əlilləri üçün 500 fərdi ev tikilir

**Şəhid ailələri və müharibə əlillərinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması işləri bu il daha da genişlənəcək. Eyni zamanda, bu işlər çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən onlar üçün 500 fərdi ev də inşa etdirilir.**

Bu barədə ”Şərq”ə Nazirlikdən bildirilib.

Qeyd olunub ki, 2022-ci ildə həmin evlər, həmçinin yaxın vaxtlarda Şəmkirdə Uşaq Bərpa Mərkəzi, Şamaxıda Psixonevroloji sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə veriləcək.

Bu barədə sosial müdafiə və reabilitasiya əhəmiyyətli obyektlərin tikintisi və təmiri işlərinin, bu sahədə qarşıda duran vəzifələrin müzakirəsi məqsədilə Nazirlikdə keçirilən iclasda bildirilib.

Vurğulanıb ki, hazırda respublikanın bir sıra bölgələrində (Quba, Sumqayıt, Gəncə, Sabirabad, Masallı və s.) də DOST Mərkəzlərinin açılmasına hazırlıq işləri aparılır.

Eyni zamanda, Masallı rayonunda Uşaq Reabilitasiya Mərkəzinin açılması planlaşdırılır.

Habelə Lənkəran və Xaçmaz rayonlarında sağlamlıq imkanları məhdud uşaqlar üçün sanator kurort tipli reabilitasiya müəssisələri açılacaq.

İclasda təmir-tikinti işlərinin qüvvədə olan tikinti norma və qaydalarına uyğun, vaxtında və keyfiyyətli aparılması sahəsində görülən işlər də müzakirə olunub.



# “Ox yaydan çıxıb"

## Türkiyə və Rusiya “3+3” formatını reallaşdırmaqda qərarlıdır

**Günəş Mərd**

**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu ilə rusiyalı həmkarı Sergey Lavrov arasında ötən gün telefon danışığı baş tutub. XİN rəhbərləri telefon söhbətində 2021-ci il dekabrın 10-da Moskvada keçirilən Cənubi Qafqazda vəziyyətin normallaşdırılması və əməkdaşlığın inkişafı üzrə ”3+3” formatının ilk toplantısını müsbət qiymətləndiriblər.**

Danışıqlar zamanı eyni tərkibdə növbəti görüşün hazırlanması barədə razılıq əldə olunub. Həmçinin, S.Lavrov Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşdırılması üzrə səylərə dəstəyini ifadə edib. Tərəflər eyni zamanda ikitərəfli münasibətləri, qarşıdan gələn NATO-Rusiya Şurası toplantısını, həmçinin Qazaxıstan, Bosniya, Herseqovina və Qafqazdakı cari vəziyyəti müzakirə ediblər.

Maraqlıdır,”3+3” formatının növbəti görüşündə hansı məsələlərin müzakirəsi gözlənilir?

**Sualımızı cavablandıran siyasi-şərhçi Elmir Səftərov ”Şərq”ə bildirib ki, növbəti görüş regional müstəvidə sülhün və əməkdaşlığın təmin olunmasında əhəmiyyətli rola malikdir:** ”Nüfuzu artmaqda olan Türkiyənin və dünyanın ən güclü dövlətlərindən biri olan Rusiyanın ”3+3 formatı”na ciddi yanaşması regional əlaqələrin mahiyyətini hərtərəfli artırır. Biz Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu və rusiyalı həmkarı Sergey Lavrov arasında baş tutan telefon danışığı zamanı bunun bir daha şahidi olduq. Yaxın vaxtlarda keçiriləcək növbəti görüşdə region ölkələrinin əməkdaşlığının genişləndirilməsi məsələlərinin geniş müzakirə olunması gözlənilir. Bu əməkdaşlığı vacib edən məsələ isə formata daxil olan ölkələrin sülh və normal qonşuluğunun davam etməsindən keçir”.

> “Çavuşoğlu və Lavrov arasındakı danışıqlarda bunun bir daha şahidi olduq”

**E.Səftərov ”3+3” formatının növbəti görüşündə Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşması üzrə daha da ciddi addımların atılacağını söyləyib. Ekspert bu tənzimləmənin birbaşa rəsmi Bakı ilə bağlı olduğunu deyib:** ”Qeyd edək ki, bundan əvvəl Ermənistanla münasibətlərin normallaşması prosesində Türkiyənin ”xüsusi təmsilçisi” seçilib. Mövlud Çavuşoğlunun ”Bölgəmizdə tənzimləmənin hər mərhələsində birlikdə hərəkət edəcəyik” fikri onu deməyə əsas verir ki, Ermənistan Azərbaycanla aralarındakı bəyanatlara əməl etməlidir”.

*Siyasi şərhçinin qənaətincə, görüşdə Cənubi Qafqazdakı proseslər, Ukrayna-Rusiya münasibətlərinin danışıqlar və beynəlxalq hüququn normalarına əsaslanan məsələlərlə həll edilməsi, həmçinin Qazaxıstan, Bosniya və Herseqovinada daxili siyasi dialoqun tezliklə bərpasının vacibliyinin müzakirəsi də gözləniləndir*: ”Bütün bunlarla yanaşı, regionda etimadın artırılması, iqtisadiyyat və nəqliyyat əlaqələrinin bərpası, yenidən qurulması və genişləndirilməsi sahəsində əməkdaşlığın inkişafına yönəlmiş fikir mübadiləsinin aparılması ən önəmli məsələlərdir”.

# Putin özünü SSRİ mogikanları kimi hiss edir

## Keçmiş ittifaqa bənzər modelin yaradılması ilə bağlı Rusiya rəhbərliyi ciddi addımlar atmaqdadır

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Qazaxıstanda sülhməramlıların qalma müddətini açıqlayıb. KTMT-nin baş katibi Stanislav Zas bildirib ki, sülhməramlı qüvvələrin Qazaxıstanda nə qədər qalacağı vəziyyətdən və respublika rəhbərliyinin qərarından asılı olacaq.**

Onun sözlərinə görə, əməliyyat başa çatdıqdan sonra qoşunlar çıxarılacaq. Zas əlavə edib ki, qoşunların qısa müddətdə qalacağı gözlənilir: ”Müddətin bir neçə gün və ya bir neçə həftə olacağını Qazaxıstandakı durum müəyyən edəcək. Əgər respublika rəhbərliyi ”vəziyyətin sabitləşdiyini və köməyə ehtiyac olmadan öz qüvvələri tərəfindən nəzarət edildiyini hesab edərsə, qoşunlar çıxarılacaq”. Rusiya Dövlət Dumasının Müdafiə Komitəsinin sədr müavini Yuri Şvıtkin də bildirib ki, KTMT-nin Qazaxıstandakı əməliyyatı təxminən bir aya yaxın davam edə bilər. Şvıtkinə görə, sülhməramlıların işi ölkədə vəziyyət normallaşdıqdan sonra başa çatacaq.





> “Rusiyanın KTMT vasitəsilə Qazaxıstana müdaxiləsi bunun nəticəsidir. Senari Qazaxıstandan əvvəl Belarusda sınaqdan keçirilib. Domino effekti olaraq davam etməkdədir”

Ekspertlərin fikrincə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının hərbi yardım adı altında Qazaxıstana qoşun yeritməsi yanlış qərar idi. Kreml göz görə-görə bu addım ilə həm KTMT Nizamnaməsinin 4-cü maddəsinin 5-ci bəndini pozdu, həm də Qazaxıstanda ikinci Əfqanıstan senarisinin yaranmasına imkan verdi. Məsələ ondadır ki, hərbi yardımı Qazaxıstan Prezidenti Qasım-Jomard Tokayev istəsə də bütün hallarda Kremlin buna razılıq verməsi qanunsuzdur. Çünki təşkilatın müvafiq maddəsində qeyd edilir ki, ittifaq üzvlərindən birinə kənar müdaxilə olarsa, digər üzvlər ona hərbi yardım göstərə bilər. Rusiya hərbçilərinin yaranmış fürsətdən sui-istifadə edərək Qazaxıstana soxulduğu və geri qayıtmaq niyyətində olmadıqları iddia olunur.

**Hərbi blokun yaratdığı ajiotajı ”Şərq”ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib ki, Nursultan Nazarbayevin son illərdəki fəaliyyəti Rusiyanın hakim dairələrində müəyyən narazılığa səbəb olurdu.** Siyasi şərhçinin sözlərinə görə, Qərbin Orta Asiya ilə bağlı layihələri, Çinlə əməkdaşlıq, Qazaxıstanın tədricən Rusiyadan qopması Kreml üçün qəbuledilməz idi: ”SSRİ-yə bənzər modelin yaradılması ilə bağlı Rusiya rəhbərliyi ciddi addımlar atmaqdadır. Putin özünü SSRİ mogikanları kimi hiss edir. O, ideoloji olaraq Lenini, fiziki olaraq Stalini yamsılamağa çalışır. Rusiyanın KTMT vasitəsilə Qazaxıstana müdaxiləsi bunun nəticəsidir. Senari Qazaxıstandan əvvəl Belarusda sınaqdan keçirilib. Domino effekti olaraq davam etməkdədir. KTMT-nin ciddi önəmi yoxdur. Sadəcə simvolik olaraq ətrafdakı dövlətlərə göstərmək lazım idi ki, hərbi təşkilatın öz qoşunu var və ilk dəfə olaraq real şəkildə əməliyyat keçirirlər. Məğlub Ermənistanın 70 hərbçisi Qazaxıstanda nə edə bilər ki?!”.

**Ə.Əlibəyli Belarus hadisələrinin Qazaxıstandakı olaylarla müqayisəsinə də münasibət bildirib:** ”Belarusda meydanlar dolu idi, amma buna rəğmən Lukaşenko Rusiyanın dəstəyini alaraq postunu qoruya bildi. Qazaxıstanda isə heç də tirajlandığı kimi geniş xalq kütləsinin üsyanından, hansısa inqilabdan söhbət getmir. Qazaxıstanda əsas məsələ tam şəkildə Rusiyanın nəzarətinə keçmək idi və nəticə göz önündədir. KTMT-nin ölkədə az və ya çox qalması isə bu reallığı dəyişmək gücündə deyil”.

**İsmayıl Qocayev**

# Kremlin çoxdankı planı baş tutdu

## Tokayev öz hakimiyyətinə görə bütün ölkəni qurban verdi

> “Rusiya Qazaxıstanı tam nəzarətə götürməmiş ordan çıxmayacaq”



**Qazaxıstanda yanvarın 2-dən ölkə sakinlərinin yanacağın qiymətinin artırılmasına qarşı başladığı etirazlar davam edir. Son məlumatlara görə, iğtişaşlar zamanı 26 nümayişçi, 18 polis ölüb. Saxlanılanların sayı isə artıq 4 min nəfərə çatır. Hazırda bütün ölkə ərazisində fövqəladə vəziyyət elan edilib.**

Bəs, Qazaxıstandakı hadisələr bundan sonra hansı istiqamətdə davam edə bilər?

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev mövzunu ”Şərq”ə şərh edərkən bildirib ki, hazırda bu ölkədəki hadisələr idarə olunmayan vəziyyətdədir:** ”Burda müxalifət lideri olmadığına görə proseslər kütləvi şəkildə həyata keçirilir. Adətən kütlə psixologiyasına görə lider seçilmir. Hər kəs özünü lider hesab edir. Ona görə də bu tip proseslərin tez sona çatacağı inandırıcı görünmür”.

Politoloqa görə, yaxın bir neçə həftə ərzində Almatı və digər iri şəhərlərdə fövqəladə vəziyyət adı ilə həbs olunanların sayı çoxalacaq: ”Öldürülənlərin sayı da hazırda 27 nəfərdir. Yaxın günlərdə bu say arta bilər. Çünki Tokayev ölkədə aksiyaların zərərsizləşdirilməsi ilə bağlı qətiyyətlidir. Bu çox təhlükəli bir vəziyyətdir. Adam öz hakimiyyəti üçün bütün ölkəni qurban verdi”.

*C.Nuriyev məsələdə Rusiyanın mövqeyinə diqqət çəkib. O, rəsmi Moskvanın bunu çoxdan planlaşdırdığını söyləyib və səbəbini açıqlayıb:* ”Çünki SSRİ-nin bərpa olunması üçün ona ən çox etiraz edən dövlətlərdən biri Qazaxıstan idi. Həm ərazisinə, həm də iqtisadi gücünə görə, o, Rusiyanı narahat edirdi. Nazarbayev də bununla razılaşmadığına görə, çoxdandır onların nəzarətində olan Tokayevin əli ilə bütün istədiyi işləri gördü. Adam onu hakimiyyətə gətirən Nazarbayevi satdısa, demək hər şey etməyə qadirdir. Yetim həmişə ona çörək verəni birinci öldürür”. Politoloq indiki halda rus ordusunun Qazaxıstanı tam nəzarətə götürməmiş ordan çıxmayacağını vurğulayıb: ”Qazaxlar tabe olmağı sevməyən, azad olan bir xalqdır. Bu proseslər yaxın bir ay ərzində davam edəcək. Ola bilər ki, müvəqqəti olaraq ara sakitləşsin. Qazaxlar gözləyəcək ki, rus ordusu ordan çıxıb getsin, amma Tokayev bunun bədəlini çox ağır ödəyəcək”.

**Günəş Mərd**

İsmayıl Qocayev

# Prezident Tokayev Kremlə güvənir

## Dövlət başçısı üsyançılara qarşı xəbərdarlıqsız atəş açmaq əmri verib



**Rusiya faktoru bundan sonra Qazaxıstanda başağrısı yaradacaq**

**Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev xalqa növbəti müraciətində təhlükəsizlik qüvvələrinə xəbərdarlıqsız atəş açmaq əmrini verdiyini deyib. Etirazçıları "terrorçu" adlandıran prezident ölkədə konstitusion hakimiyyətin tədricən bərpa olunduğunu, situasiyanın nəzarətə götürüldüyünü qeyd edib:**

"Bizim ölkəmizdə antiterror əməliyyatı davam edir. Mən hüquq-mühafizə orqanlarına və orduya xəbərdarlıqsız atəş açmaq əmri vermişəm". Prezident hadisələr zamanı yüzlərlə dinc sakinin, hərbçinin yaralandığını və öldürüldüyünü əlavə edib. Tokayev hadisələrdə iştirak edən bütün şəxslərin ən sərt şəkildə cəzalandırılacağına söz verib. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sülhməramlı kontingenti Qazaxıstanın hüquq-mühafizə orqanları ilə birlikdə Almatı aeroportunu nəzarətə götürüb. İğtişaşlar nəticəsində ölkəyə dəyən zərərin ilkin hesablanmış məbləği təxminən 100 mln. ABŞ dolları təşkil edib. Qazaxıstanın Milli Sahibkarlar Palatasının məlumatına görə, zərərin böyük hissəsi ticarət, ictimai iaşə, nəqliyyat, xidmət subyektləri, eləcə də maliyyə sektoruna dəyib. Ümumilikdə 519-a yaxın subyekt ziyan görüb. Eyni zamanda, qeyd edilir ki, sözügedən biznes obyektlərinə çıxış olmadığından əksər iş adamlarına dəyən tam ziyanı qiymətləndirmək hələ də mümkün deyil. Xaricdə gizlənən "Bank Turan Alem"in (BTA Bank) keçmiş rəhbəri Muxtar Ablyazov özünü ölkədəki müxalifətin və etirazların lideri adlandırıb. Mühacir qazax bankirin sözlərinə görə, Almatıdakı etirazçılar ondan hər gün necə davam edəcəyini soruşurlar: "Etirazların sakitləşməsi üçün Qazaxıstana qayıtmağa və "müvəqqəti hökumətə" rəhbərlik etməyə hazıram". O, etirazları əlaqələndirmək üçün Qərbdən vəsait almadığını da vurğulayıb. Qeyd edək ki, Muxtar Ablyazovun qərargahı Kiyevdə, özü isə Parisdədir.

Bu arada Avropa İttifaqı Qazaxıstana yardım etməyə hazır olduğunu bildirib. Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen deyib ki, vətəndaşların hüquqları və təhlükəsizliyi prioritetdir və təmin edilməlidir: "Mən zorakılığa son qoymağa və təmkin göstərməyə çağırıram. Aİ bacardığı hər sahədə kömək etməyə hazırdır". NATO Baş katibi Yens Stoltenberqin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina da "Twitter"də Qazaxıstandan yazıb. O bəyan edib ki, NATO Qazaxıstandakı vəziyyətlə, insan tələfatı ilə bağlı ciddi narahatlığını bölüşür: "Biz bütün tərəfləri təmkinli olmağa, zorakılıqdan çəkinməyə və dialoq aparmağa çağırırıq. Səlahiyyətlilər beynəlxalq insan hüquqları öhdəliklərinə, o cümlədən dinc etiraz hüququna hörmət etməlidir".

Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdıralının Qazaxıstandakı siyasi vəziyyətlə bağlı bəyanatı yayılıb. Bəyanatda vurğulanıb ki, BTA xuliqan ünsürlərin müstəqilliyə və ərazi bütövlüyünə qarşı qanunsuz hərəkətlərini qətiyyətlə pisləyir: "Biz dinc əhalinin həyatına təhlükə yaradan, ictimai asayişi pozan hər cür terrorun, dövlətçiliyin əsaslarını sarsıdan zorakı hərəkətlərin qəti əleyhinəyik. Qazaxıstan Prezidenti Kasım-Comart Tokayevin qəbul etdiyi qərarları, eləcə də davam edən antiterror əməliyyatını tam dəstəklədiyimizi bildiririk. Hesab edirik ki, bu sınaq saatında bütün cəmiyyətin birliyi və ölkə rəhbərliyinin bütün vətəndaşlar tərəfindən dəstəklənməsi vacibdir. Qazaxıstanda sabitliyin tezliklə bərpası qardaş türk ölkələri üçün son dərəcə əhəmiyyətlidir.

Bu səbəbdən də bu çətin dövrdə ölkədə ictimai-siyasi sabitliyin tezliklə bərpa olunmasını arzulayırıq".

Beynəlxalq Türk Akademiyasının vitse-prezidenti, tanınmış jurnalist Füzuli Məcidli də Qazaxıstandan xəbər verib. O bildirib ki, Qazaxıstanda baş verən iğtişaşlar səbəbindən telefon və internet daxil olmaqla bütün əlaqə vasitələrinə çıxış məhdudlaşdırılıb: "Buna görə müxtəlif vasitələrlə bizimlə əlaqə qurmağa çalışan, zəng vuran, mesaj yazan, lakin əlaqə yarada bilməyən dostlar narahat olmasınlar. Hadisələr sakitləşməyə doğru gedir. Hazırda paytaxtdayıq və burada sakitlikdir. Narahatlığını paylaşan bütün dostlara, yaxınlara təşəkkür edirəm.

Qazaxıstanda tezliklə sakitliyin və əmin-amanlığın bərpa olunacağına inanır, qardaş Qazax xalqına sülh arzulayıram".

**Ədalət Partiyasının sədr müavini Elxan Şükürlü deyib ki, Qazaxıstandakı kütləvi iğtişaşların təşkilində ölkə ərazisinə sızmış hansısa radikal islamçı təşkilatın, xüsusən də "İŞİD-Xorasan" qruplaşmasının ittiham ediləcəyi daha çox gözləniləndir.** Onun sözlərinə görə, bu, Tokayevə həm KTMT-ni ölkəsinə çağırışının qanuniliyini əsaslandırmaq üçün gərək olacaq, həm də Rusiyanın Özbəkistan, Qırğızıstan, Tacikistan və Türkmənistan sərhədlərinin təhlükəsizliyini birgə qorumaq təşəbbüsünü legitimləşdirəcək: "Xatırladım ki, bir neçə ay əvvəl Qərb mətbuatı ABŞ-ın Əfqanıstanda təlim keçdiyi hərbçilərin və kəşfiyyatçıların "Taliban"la mübarizə aparmaq üçün kütləvi şəkildə "İŞİD-Xorasan"a qoşulduqlarını, "İŞİD-Xorasan"ın Orta Asiyada nüfuz və təsirini getdikcə gücləndirdiyini yazmışdı. Elə Rusiya xüsusi xidmət orqanları da 2014-cü ildən bəri İraq və Suriyadan qayıdan İŞİD döyüşçülərinin Mərkəzi Asiyada cəmləşdiklərini və növbəti terror xaosunun Mərkəzi Asiyada yaşanacağını elan etmişdilər. Əgər indi Qazaxıstandakı hadisələrdə də radikal islamçılar suçlu elan ediləcəklərsə, hadisələrin hansı senari üzrə inkişaf edəcəyi haqda artıq aydın təsəvvür yaranacaq".

**Politoloq Qabil Hüseynli isə qeyd edib ki, Qazaxıstanda kütləvi etirazların qiymət artımına görə başlaması ilə bağlı irəli sürülən arqumentlər ciddi deyil. Analitikə görə, Qazaxıstan əhalinin maddi güzəranına, əmək haqlarının səviyyəsinə görə MDB məkanında, hətta Rusiyanı da qabaqlayaraq öndə gedən bir ölkədir:** "Qazaxıstan iqtisadiyyat strukturlarının qurulması sürətinə, kiçik və orta sahibkarlığın inkişaf səviyyəsinə görə MDB məkanında ilk yerlərdə dayanan ölkədir. Sıxılmış maye qazının qiyməti qaldırılmaqla yanaşı, yanvar ayında əmək haqlarında da böyük artımlar oldu. Etiraz edənlər yalnız Almatı şəhəri və Aktauda-Xəzər dənizinin sahillərində olan ərazinin "bir ovuc əhalisidir". Aksiyaçılar xarici kəşfiyyat orqanlarının, üçüncü bir dövlətin xüsusi xidmət orqanları tərəfindən bir müddətdir ki, hazırlanırdı. Eləcə də Qazaxıstanda həyata keçirilən türkçü siyasəti, "kiril"dən latın qrafikasına keçilmə, Türkdilli Dövlətlər Təşkilatının yaranması, Qazaxıstanın öz ərazisində NATO-nun hərbi bazasını yerləşdirmə ehtimalı üçüncü dövlətin qəzəbinə səbəb olmaqda idi. Rusiya onsuz da bütün dünyanı özünə qarşı səfərbər etməkdədir. Post-sovet məkanındakı ölkələrə bu, sözün əsl mənasında yaşamaq imkanı tanımır. Bunu Estoniyanın xarici işlər naziri də öz çıxışında bəyan etmişdi. Qazaxıstanın qurucu memarı olan Nursultan Nazarbayevin xidmətlərinə əhəmiyyət verməyərək, vəzifədən uzaqlaşdırılması və hətta onun haqqında daha radikal addımların atılmasını tələb edən o bir ovuc etirazçı xarici dövlətlərin agenturasının, şəbəkəsinin fəal üzvləridir. Rusiya faktoru bundan sonra da başağrısı yaradacaq".

# Milonov Qarabağda "rus icması" planının aparıcı fiqurudur

## Planın indi aktivləşdirilməsi səbəbsiz deyil



"Ermənistanın oyundan çıxması Qarabağda güc balansını Azərbaycanın xeyrinə dəyişəcək"

İsmayıl Qocayev

**Rusiya Dövlət Dumasının deputatı Vitali Milonov Azərbaycan ərazilərinə növbəti dəfə qanunsuz səfər edib. Hakim "Vahid Rusiya" partiyasının üzvü Yeni il günlərində Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan Azərbaycan ərazilərinə qeyri-qanuni səfər edərək, orada bir sıra görüşlər keçirib.**

Onun bu addımı Azərbaycan rəhbərliyinin kəskin etirazına səbəb olub.







Prezident İlham Əliyev "Vahid Rusiya" partiyasının sədri Dmitri Medvedevə məktub göndərərək, onun rəhbərlik etdiyi partiya üzvünün Azərbaycan ərazilərinə qeyri-qanuni səfər etməsinə qəti etirazını bildirib. Qeyd edək ki, Milonov bundan əvvəl də Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı dəfələrlə hörmətsizlik nümayiş etdirib.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında vurğulayıb ki, bu etiraz rəsmi Bakının Moskvaya ərazi bütövlüyü və suverenliyi məsələsində güzəşt olmayacağını ən yüksək səviyyədə çatdırmasıdır.** Analitik vurğulayıb ki, Milonov Qarabağda "rus icması" planının aparıcı fiqurudur və bu planın indi aktivləşdirilməsi səbəbsiz deyil: "Azərbaycan-Ermənistan sərhədinin müəyyən edilməsi ilə İrəvanın oyundankənar vəziyyətə düşəcəyi məlumdur. Bu, Qarabağdakı separatçı-terrorçuların bizim daxili məsələmiz olduğu faktını daha da gücləndirəcək. Paşinyanın "Qarabağın statusu" ilə bağlı son açıqlaması da İrəvanın separatçı-terrorçuları rusların qucağına itələdiyini deməyə əsas verir. Ermənistanın oyundan çıxması Qarabağda güc balansını Azərbaycanın xeyrinə dəyişəcək. Bu, rus sülhməramlılarının bölgədə nəzərdə tutulan vaxtdan daha çox qalması perspektivini də zəiflədir".

*Ekspert bildirib ki, Rusiya Ermənistanın oyundan çıxması prosesinin getdiyi vaxtda "rus icması" kartını da işə salır:* "Bu, Moskvanın bölgədə mövcudluğunu davam etdirmək "arqumentini" gücləndirmək və əlavə rıçaqlar qazanmaq planıdır. Rəsmi Bakı bu plana qarşı ən yüksək səviyyədə mövqe ortaya qoydu. Dövlət başçısı İlham Əliyev bununla Rusiyaya açıq mesaj verdi ki, "rus icması" planından xəbərdarıq, ərazi bütövlüyü və suverenliyimiz məsələsində güzəşt olmayacaq. Rəsmi Bakının ən yüksək səviyyədə etirazı Qazaxıstan hadisələri fonunda da xüsusi diqqət çəkir".

**Politoloq Məhəmməd Əsədullazadə də "Şərq"ə bəyan edib ki, Prezident İlham Əliyevin Medvedevə göndərdiyi etiraz məktubu Kremlə ciddi mesajdır:** "Rusiya etnik ermənilərin yaşadığı kiçik bir ərazidə qondarma "rus icmasi" yaradıb. Burada Rusiyanın elm və mədəniyyət xadimlərinin abidələrini ucaldıb. Baş verənlər təbii ki, rəsmi Bakını narahat etməyə bilməzdi. Rusiya dumasının bir neçə üzvü Xankəndi yolunu "su yolu" ediblər. Burada "rus icması" təsis etməklə Azərbaycanın suverenliyinə bir təhdid yaradırlar. Prezidentin etiraz məktubunu Moskvaya xəbərdarlıq kimi qiymətləndirmək olar. Rusiya Qarabağda sülhməramlı qüvvələrinin məsuliyyət zonasında "ruslaşdırma" siyasəti aparmağa cəhd edir. Bunun qarşısının alınması üçün prezidentin məktubu Kremlin Qarabağda "hoqqalarına" son verilməsi üçün Bakının hərəkətə keçəcəyinin mesajıdır".

**Siyasi şərhçi Rusif Məmmdəsoy isə bildirib ki, Azərbaycana qarşı "əsəb oyunları" davam edir:** "Rusiya tərəfi həmin ərazilərin Azərbaycana məxsusluğunu və icazəsiz səfər etməyin yasaq olduğunu çox yaxşı başa düşür. Qanunsuz səfər bizə qarşı çox böyük hörmətsizlik və saymazlıqdır. Ölkə başçısı da haqlı olaraq etiraz edib. Məncə, daha ciddi addımlar atmalıyıq. Xüsusilə, Laçın dəhlizinə nəzarəti ələ keçirməliyik. Əks halda, belə təxribatların sayı artmaqla davam edəcək, son olmayacaq".

*Analitikin sözlərinə görə, artıq rəsmi Moskva Qarabağda "rus icması" yaratması təsadüfi deyil:* "Çox təhlükəli məqamdır. Orda nə qədər rus yaşayır ki?! Bu nəyə və kimə lazımdır? Proseslərin qarşısını almalıyıq. Təsəvvür edin, Qarabağdakı erməni separatçıların hərbi xunta başçısı Araik Arutyunyanla icma görüşür və fotolar paylaşır. Rusiya Xankəndidə büst ucaldır, park salır. Bütün bunlar sülhməramlı missiyanın başlıca öhdəliyi deyil, ola da bilməz. Rusiyaya qarşı artıq daha sərt ritorika ortaya qoymalıyıq. Başlıca vəzifəmiz Laçın dəhlizinə nəzarəti ələ keçirmək olmalıdır".

# Qriqoryanın məntiqi absurddur



**Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Qazaxıstandakı olayları nəzərdə tutaraq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının ilk dəfə böhran vəziyyətə operativ reaksiya verdiyini bu sözlərlə tərifləyib:**

"Təşkilata üzv ölkələr necə reaksiya vermək lazım gəldiyini əyani göstərdilər". Armen Qriqoryan ardınca belə bir cümlə də işlədib: "Ümid edirik ki, oxşar durum yaranarsa təşkilat Ermənistana dəstək olacaq". Görünür, Qriqoryan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Ermənistanı Azərbaycandan qorumasına işarə edib. Ancaq təşkilat İkinci Qarabağ müharibəsində prosesə müdaxilə etməyərək, İrəvanın yalvarışlarına rəğmən, "bu müharibə bizlik deyil" deyərək Azərbaycanla üz-üzə qalmaq istəmədi. Hazırda Azərbaycan Ermənistanla sərhədini müəyyənləşdirməyə çalışır ki, buna Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı müdaxilə edə bilməz.

**Belə çıxır ki, sabah Paşinyanı devirmək istəsələr hökumət KTMT-ni köməyə çağıracaq**

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu vurğulayıb ki, təşkilat Qazaxıstan Prezidenti Tokayevin kömək istəyinə dərhal müsbət reaksiya verdi, lakin ermənilərin çağırışları qulaqardına vuruldu. Analitikə görə, Ermənistan hakimiyyətini qıcıqlandıran məqam budur:** "Məsələ burasındadır ki, dəstək qərarı təşkilatlıq məsələ deyil. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ölkələrinin hərbçilərinin Qazaxıstana göndərilməsi qərarı Kremldə verilib. Digərləri isə bu qərarı yerinə yetirmək məcburiyyətində qalıblar. Armen Qriqoryanın "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı oxşar durumda Ermənistana dəstək ola bilər" ifadəsinin başqa mənası da var. Təşkilat Qazaxıstanı hansısa xarici hücumdan qorumur, yerli hakimiyyəti ona hücum edənlərdən qoruyur. Belə çıxır ki, bir gün Ermənistanın hazırkı hökumətini və Baş nazir Nikol Paşinyanı radikal müxalifət, o cümlədən "Qarabağ klanı" devirmək istəyərsə, Qriqoryanın məntiqinə görə, təşkilat onların da köməyinə çatmalıdır. Ancaq bunun üçün Qazaxıstanda olduğu kimi banklara və dükanlara hücum edilməli, silahlı qarşıdurmalar qeydə alınmalıdır. Əslində yerli hakimiyyəti qorumaq üçün bəhanə tapmaq çətin məsələ deyil. Əgər Kreml Paşinyanın və hökumətin devrilməsində maraqlı olacaqsa Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı yerindən tərpənməyəcək".

**İsmayıl Qocayev**

# "Çox gözəl mənzərədir"

## İcra başçısının müavini fotodan danışdı

**Astara rayonunun Diqo kəndində nəvəsini belində məktəbə aparan nənənin fotosu sosial mediada müzakirə obyektinə çevrilib. Oxu.Az xəbər verir ki, fotoda əks olunan mövcud yolun kənd sakinləri üçün çətinlik yaratdığı bildirilib.**



Məsələ ilə bağlı Astara Rayon İcra Hakimiyyəti başçının müavini Firəngiz Sadıxova bildirib ki, kəndin sakinlərinin bir qisminin evləri dağın başında yerləşir və bu əraziyə yol çəkmək mümkün deyil:

"Kənddə dağın başına aparan mərkəzi yola asfalt örtüyü döşənib. Artıq neçə illərdir ki, Diqoda mərkəzi yollarda asfalt örtüyü mövcuddur. Bura eyni zamanda turizm zonası sayılır, ümumilikdə kəndin yolları yaxşı vəziyyətdədir. Sadəcə əhalinin bir qisminin evləri dağın ən yüksək hissəsində yerləşir. Bura asfalt çəkilmir. Ərazidə yaşayan insanlar da mərkəzi yola düşür və buradan məktəbə gedirlər. Fotoda nənə nəvəsini belinə alıb məktəbə aparır. Bu, çox gözəl mənzərədir. Burada nə var ki? Mən düşünmürəm ki, acınacaqlıdır".

*Qeyd edək ki, tanınmış fotoqraf Orxan Əzimin çəkdiyi foto ötən gün sosial mediada yayılıb. Foto ilə bağlı yolun hərəkət etmək üçün əlverişsiz olması, kənd sakinləri üçün çətinlik yarada biləcəyi ilə bağlı fikirlər bildirilib.*

# Azərbaycan, Türkiyə və Gürcüstan böyük təcrübəyə sahibdir

## Gömrük məsələləri üzrə üçtərəfli komitənin yaradılması müsbət və zəruri ortaq təşəbbüslərdən biridir



**Türkiyə Azərbaycan və Gürcüstan hökumətləri arasında gömrük məsələləri üzrə üçtərəfli komitənin yaradılması haqqında protokolu təsdiqləyib. Üç ölkə arasında gömrük məsələləri komitəsi ötən ilin oktyabrında Türkiyənin İzmir şəhərində yaradılıb.**

Üçtərəfli Komitə tərəflər arasında əməkdaşlığı əlaqələndirəcək, təşviq və inkişaf etdirəcək. Eləcə də əsas əməkdaşlıq sahələrini və istiqamətləri müəyyənləşdirəcək. Komitə tərəflər arasında sərhəd keçidlərini asanlaşdırmaq, təhlükəsizliyi təmin etmək, modernləşmə proqramları və təchizatla bağlı bilik və qabaqcıl təcrübələri bölüşmək, qaçaqmalçılığa qarşı birgə operativ tədbirlər görmək üzrə əməkdaşlığı əlaqələndirəcək. Tərəflərin gömrük xidməti rəhbərləri Komitənin həmsədrləri olacaq və müxtəlif sahələr üzrə işçi qrupları yaradılacaq. İclaslar ildə bir dəfə keçiriləcək. Növbəti toplantı Bakı şəhərində olacaq.

**Üç ölkə arasında gömrük komitəsinin yaranmasını "Şərq"ə dəyərləndirən millət vəkili Vüqar Bayramov deyib ki, son dönəmlər regionda Azərbaycan və Gürcüstanın, eləcə də Türkiyənin birgə əməkdaşlığı və münasibətlərdən qarşılıqlı faydalanma daha çox müşahidə olunmaqdadır. Deputatın sözlərinə görə, üç ölkə çoxsaylı birgə layihələrin həyata keçirilməsi ilə bağlı böyük təcrübəyə malikdir:** "Üç dövlət arasında daha sıx əməkdaşlıqla bağlı mütəmadi müzakirələr gedir, danışıqlar aparılır. Gömrük məsələləri üzrə üçtərəfli komitənin yaradılması müsbət və zəruri ortaq təşəbbüslərdən biridir. Komitə region ölkələri arasında ticarət dövriyyəsinin artmasını stimullaşdıracaq. Xüsusən, ölkələr arasında idxal-ixrac əməliyyatlarının genişləndirilməsinə imkan verəcək. Bu da hər üç ölkənin iqtisadi inkişafı baxımından vacibdir. Gələcəkdə ölkələr daha çox birgə layihələrə imza ata biləcəklər. Azərbaycan, Gürcüstan və Türkiyəni həm də nəqliyyat qovşaqları birləşdirir. Bu kontekstdən yanaşsaq, birgə əməkdaşlıq sadəcə üç ölkənin deyil, bütövlükdə Cənubi Qafqazın tərəqqisinə xüsusi töhfə verəcək".

İsmayıl Qocayev

# Nazarbayevin qızları da Qazaxıstanı tərk ediblər



**Qazaxıstanın keçmiş prezidenti Nursultan Nazarbayevin qızları ailələri ilə birlikdə ölkəni tərk edib.**

"Şərq" "Lent.ru"ya istinadən xəbər verir ki, bu barədə "Orda.kz" nəşri məlumat yayıb .

Nəşrin məlumatına görə, Qazaxıstanı yalnız Nazarbayevin böyük qardaşı Bolat tərk etməyib.

Çimnaz ŞAHLAR

# Nazarbayevin qardaşı oğlu saxlanıb



**Qazaxıstanın keçmiş prezidenti Nursultan Nazarbayevin qardaşı oğlu Samat Abış Almatıda saxlanılıb.**

Bu barədə "Şərq" "lenta.ru"ya istinadən xəbər verir.

Qazaxıstan Milli Təhlükəsizlik Komitəsi (DTK) sədrinin birinci müavini vəzifəsindən azad edilən S.Abış həbs olunub.

Hadisənin başqa təfərrüatları açıqlanmayıb.

Xanlar ƏLİBƏY



# Makron qərarlıdır, peyvənd olunmayanları bezdirəcək

## "Yanvarın 15-dən etibarən onlar restorana, kafeyə, teatra, kinoya gedə bilməyəcək"

**Fransa Prezidenti Emmanuel Makron "koronavirusa qarşı peyvənd olunmayan insanları bezdirmək istəyirəm" ifadələrindən sonra danışıb. Makron sözlərinin üstündə durduğunu bildirib.**

"Şərq" "HaberTürk"ə istinadən xəbər verir ki, Fransa lideri bu yaxınlarda "COVİD-19" peyvəndi olmayanlara sosial həyatlarını məhdudlaşdıraraq təzyiq göstərəcəklərini deyib. O, bu cür tədbirlərin vətəndaşların özü üçün vacib olduğunu vurğulayıb: "Biz vaksin olunmayanlara məhdudiyyətlər qoymalıyıq. Koronavirusa qarşı peyvənd olunmayan insanlarla bağlı ayıq-sayıq olmaq mənim məsuliyyətimdir".

Makron peyvənd olmayanların nələrlə qarşılaşacağını qeyd edib: "Peyvənd olmayanları bezdirmək istəyirəm. Bunu sona qədər davam etdirəcəyik. Strategiya budur. Onları həbsxanaya göndərməyəcəyəm, peyvənd etməyəcəyəm. Lakin yanvarın 15-dən etibarən onlar restorana, kafeyə, teatra, kinoya və s. gedə bilməyəcək".

Sosial həyatlarını məhdudlaşdıraraq peyvənd olunmayanlara təzyiq göstərdiklərini ifadə edən Makron yetkinlərin yüzdə 90-dan çoxunun peyvənd olunduğu məlumatını paylaşıb.

Cəmilə ƏZİM

# Qırğızıstan qardaş qırğınına qatılmaq istəmədi

## Ancaq Kremlin təzyiqindən sonra fikrindən daşınmalı oldu

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Qazaxıstana göndərdiyi sülhməramlıların sayı açıqlanıb. 3770 hərbçinin daxil olduğu kontingentdə ən çox hərbçi Rusiya ordusuna məxsusdur. Rusların sayı 3000 nəfərdir. İkinci yerdə 500 hərbçi ilə Belarus, üçüncü yerdə isə 200 hərbçi ilə Tacikistan dayanır. Ermənistan isə 70 hərbçi ilə sonuncu yeri tutur.**



***"Bu cür "geri dönüş" göstərir ki, Qırğızıstan hökuməti qətiyyətli duruşdan acizdir"***

Məlum olduğu kimi, KTMT-nin üzvü olan Qırğızıstan ilk başda Qazaxıstana hərbçi göndərməkdən imtina etmişdi. Qırğızıstan Prezidenti Sadır Japarovun mətbuat katibi Qazaxıstandakı etirazçılara qarşı hərbçi göndərməyəcəklərini açıqlamışdı. Bəyan etmişdi ki, hərbçilər göndərilsə belə, bu, humanitar xarakterli olacaq. Hökumətin qətiyyətli qərarı qırğız ictimaiyyəti tərəfindən də məmnunluqla qarşılanıb. Sosial Demokratlar partiyasının sədri Temirlan Sultanbekov qardaş qırğınına yol verilməz olduğunu bəyan edib: "Allah eləməsin, sabah Qazaxıstanda əsgərlərimiz ölsə, bu, Nazarbayev-Tokayev üçün baş verəcək?! Mitinqlər dayanmasa, əsgərlərimiz qardaşlarımızı güllələməyə məcbur olacaqlar. Siz başa düşürsünüz ki, ölkəmizə qardaş Qazaxstan xalqı nifrət edə bilər?! Tələb edirik, ictimai rəy nəzərə alınsın və qoşunlarımızdan heç vaxt qardaş xalqa qarşı istifadə olunmasın. Bunun əvəzinə mümkün qayğı göstərmək üçün Qırğızıstandan ən yaxşı cərrahları və digər həkimləri Qazaxıstan xəstəxanalarına göndərin!". Lakin parlamentdə çıxış edən Qırğızıstan Nazirlər Kabinetinin rəhbərinin müavini Kamçıbek Taşiyev bildirib ki, Qırğızıstan Qazaxıstana 150 hərbçi və 19 hərbi texnika göndərməyi planlaşdırır. Görünür, Qırğızıstanın imtinasından sonra Moskva rəsmi Bişkekə qarşı təzyiq rıçaqlarını işə salıb. Məhz bu səbəbdən qırğız hökuməti qərarına yenidən baxmağa məcbur olub.

**Politoloq Əhəd Məmmədli "Şərq"ə açıqlamasında bildirib ki, Qırğızıstanın Kremlin açıq-aşkar təzyiqindən sonra mövqeyini dəyişməyə məcbur qaldığı gün kimi aydındır.** Analitikə görə, bu cür "geri dönüş" göstərir ki, Qırğızıstan hökuməti qətiyyətli duruşdan acizdir: "Sabiq prezident Əskər Akayev devriləndə çoxları sevinirdi ki, rusyönlü prezident getdi, bundan sonra Qırğızıstanda demokratiya olacaq. Düzdür, indiki prezident Sadır Japarovun dövründə Akayevlə müqayisədə yumşalma var. Amma Qırğızıstan "banan ölkəsi"nə çevrilib və tamamilə Rusiyanın nəzarətinə keçib. 5 ildən bir çevriliş olur və tayfalar hakimiyyətdə bir-birini əvəzləyir. Qırğızlar qazaxların üzərinə qoşun göndərməməlidir. Hər iki xalq bir-birinə çox yaxındır, demək olar ki, eyni millətdir. Amma Qırğızıstan Moskvanın təzyiqləri qarşısında tab gətirmək iqtidarında deyil".

İsmayıl Qocayev



# Abidələrin "Bərpa təlimatı" və elektron xəritəsi hazırlanıb

**Şuşa şəhərindəki abidələrin "Bərpa təlimatı" hazırlanıb.**

Trend xəbər verir ki, bunu Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli qurumun 2021-ci ildəki fəaliyyətinə və 2022-ci il üzrə nəzərdə tutulmuş planlara dair mətbuat konfransında deyib.

Onun sözlərinə görə, sənəddə bir neçə əsas istiqamətlər üzrə məlumat və tövsiyələr öz əksini tapıb: "Bunlar işğalın nəticələri və səbəb olduğu dağıntılar, abidələrin monitorinqi və inventarlaşdırılması, abidələrin bərpası və regenerasiyası, bərpa prosesi, abidələrin identifikasiya və lokalizasiya məlumatları, tikililərin tipologiyası və xüsusiyyətləri, abidələrin bərpa statusu və risk faktorları, onların qorunması üçün təcili mühafizə tədbirləri, abidələrin tarixi-memarlıq tədqiqatları və memarlıq tipologiyasıdır".

Qeyd edilib ki, Şuşa şəhərində yerləşən abidələrin elektron xəritəsi tərtib edilib. Şuşada aparılan monitorinq çərçivəsində 45 tarixi abidənin üzərinə məlumat lövhələri quraşdırılıb. Eyni zamanda, Şuşa şəhərində dövlət qeydiyyatına alınmış tarix-memarlıq abidələrinin kataloqu hazırlanıb. Bununla əlaqədar "Şuşa-Azərbaycan Mədəniyyətinin Paytaxtı" adlı nəşrin çap olunması ilə bağlı işlər aparılır.

Şuşa və Ağdam şəhərində yerləşən abidələr monitorinq olunub, təxirəsalınmaz mühafizə işlərinin aparılması zəruri olan bir sıra xüsusi əhəmiyyətə malik abidələr müəyyən edilmiş və onların siyahıları hazırlanıb.

Dövlət Xidmətinin əməkdaşları tərəfindən mövcud xəritə və arxiv sənədlər əsasında Şuşa şəhəri ərazisində yerləşən abidələr inventarlaşdırılaraq mövcud vəziyyətlərinə uyğun təsnifatlaşdırılıb, həmçinin koordinatları dəqiqləşdirilmiş və fotoşəkilləri çəkilib.

# Hamının baha qiymətə avtomobil almaq imkanı yoxdur

## Müəyyən bir təbəqə köhnə hibrid maşınlardan istifadə etmək məcburiyyətində qalacaq

Sənan İsmayıl



**Ötən ilin dekabr ayında Azərbaycanda avtomobil bazarı üzrə satışlar noyabr ayına nisbətən, təqribən, 5 faiz artıb. Növbəti aylarda ölkənin avtomobil bazarında qiymətlərin sabit qalacağı ehtimal olunur. Eyni zamanda elektromobil və hibrid avtomobillərin ƏDV-dən azad edilməsi də qiymətlərə öz təsirini göstərəcək.**

*Avtomobil bazarında baş verən proseslərlə bağlı "Şərq"ə danışan nəqliyyat üzrə ekspert Elməddin Muradlı bildirib ki, yeni nəsil avtomobillər ucuzlaşa bilər:*

"Yanvarın 1-dən mühərrik həcmi böyük olan avtomobillərin, eləcə də, ili 7 ildən köhnə olan avtomobillərin ölkəyə gətirilməsi üçün rüsumlar artıb. Bu da həmin avtomobillərin qiymətinə təsir edəcək. Əgər düzgün analiz və təhlil edilibsə, bu yaxşı yanaşmadır. Yox, qərar kor-koranə qəbul edilibsə, bunun mənfi fəsadları ola bilər. Çünki yeni avtomobilə onun qiyməti arasında fərq yoxdursa və yaxud cüzidirsə, insanlar yenə köhnə avtomobil alıb gətirəcək.

Əslində bir çox ölkələr bu praktikanı tətbiq edir. İl məhdudiyyəti qoyur, köhnə maşınlara daha ağır vergi, rüsum tətbiq edir və vətəndaşlar gedib yeni avtomobil alırlar. Ətraf mühitin qorunması, yol-nəqliyyat hadisələrində ölüm və xəsarətlərin az olması üçün yeni avtomobillərə keçid vacibdir. Azərbaycanda da artıq bu tendensiya baş verir. Dünya səviyyəsində çağırışlara cavab verilir və elektromobillərin, hibrid avtomobillərin ölkəyə gətirilməsinə daha geniş imkan yaradılır. Bu imkan sayəsində həmin avtomobillərin qiymətində enmə baş verə bilər. Bu enmə də ili 3 ildən köhnə olmayan avtomobillər üçündür. Ancaq bu avtomobillərin qiyməti vətəndaşların ala biləcəyi hibridlərdən qat-qat bahadır. Vətəndaşlar gedib 12-15 min manata "Toyota Pirus" ala bilirsə, bu, 2007-2010-cu ilə qədər olan avtomobillərdir. Dövlətin qoyduğu qaydalara görə 2019-cu ildən sonrakı "Toyota Pirus"lar ƏDV-dən azad olunur deyə onların qiyməti də təxminən 40 mindən başlayır və 100 minə keçir. 15 min manata maşın alan insan onu necə əldə edəcək, qiymətlərdən necə faydalana biləcək, bu bir az düşündürücüdür. Yenə də müəyyən bir kütlə köhnə hibridlərdən istifadə etmək məcburiyyətində qalacaq.

**Ekspert eyni zamanda qeyd edib ki, qiymətlərin bu ay tarazlaşması mümkün deyil:** "Qiymətlərin yanvar ayında tam olaraq tarazlanacağına inanmıram. Bu mart ayına kimi çəkəcək. Çünki bəzi avtomobil şirkətləri var ki, onlar ölkəyə avtomobil gətirə bilmir. Ölkəyə hibrid avtomobili ən çox "Toyota" gətirə bilir. "Mersedes" hələ düşünür, "Volkswagen" isə 2024-cü ildən tez göndərə bilməyəcəyini bəyan edir. Yəni digər modellər bu rəqabətə necə dözəcək, onlar hansı variantlara əl atacaq?! Digər avtomobil istehsalçıları da hibrid avtomobilləri Azərbaycana gətirsə, rəqabət yarana və qiymətlər də düşə bilər. Bütün bunları biz ilin birinci rübündən sonra daha aydın şəkildə görə və deyə bilərik".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**



# Şuşada regionun ən böyük məscidi tikilir

## Şəhərin yuxarı hissəsində yerləşəcək məscid bütün Şuşaya hakim olacaq

Mələhət Rzayeva

**Azərbaycan tolerant, bütün dinlərə hörmətlə yanaşılan ölkə olduğunu dünyaya sübut edib artıq. Bunu ölkəmizdə kilsə və sinaqoqların, məbədlərin məscidlərlə yanaşı açıq, heç bir ayrı-seçkiliyə məruz qalmadan sərbəst fəaliyyət göstərməsi təsdiq edir.**

Hər il Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkədə fəaliyyət göstərən dini icmalar, dini ibadət yerləri barədə məlumat açıqlayır. Məlum olur ki, məscidlərlə yanaşı, paytaxtda, eləcə də regionlarda 14 kilsə, 7 sinaqoq fəaliyyətdədir. DQİDK-nin sədri Mübariz Qurbanlı ”Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi: 20 illik zaman kəsiyində” məruzəsində də bu məsələyə toxunmuşdu və qeyd etmişdi ki, dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan (01.09.2009-cu il) bu günədək 970 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onlardan 933-ü islam, 37-si isə qeyri-islam (xristian - 26; yəhudi - 8; krişna - 1; bəhai - 2) təmayüllüdür. Baxmayaraq ki, Azərbaycan müsəlman ölkəsidir və əhalinin 90 faizi islam dininin daşıyıcılarıdır, digər dinlərin mənsubları, Azərbaycan vətəndaşı olan etnik qrupların nümayəndələri ibadətlərini istədikləri şəkildə icra edə bilir. Azərbaycan dövləti bütün millətlərə, etnik qruplara bu imkanı yaradıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyeva regionlara səfərləri zamanı kilsələri, məbədləri ziyarət edir, kilsə xadimləri ilə görüşür və problemləri dinləyir, çətinliklərin aradan qaldırılmasına göstəriş verirlər. Ölkədə fəaliyyət göstərən kilsə, məbəd və sunaqoqlar dövlət vəsaiti, həmçinin Heydər Əliyev Fondunun dəstəyi ilə təmir edilir, abadlaşdırılır. Bu günlərdə isə Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində ”Xanım Fatimeyi Zəhra” məscidinin yeni binasında yaradılan şəraitlə tanış oldular. Qeyd edək ki, bu məscid bir neçə ildir təmir edilirdi, hətta bir müddət təmir işləri yarımçıq da saxlanmışdı. İndi isə məscid tamamilə yenilənib. Məscid əvvəllər qəzalı vəziyyətdə olan ikimərtəbəli binada yerləşirdi və burada dindarların ibadəti üçün heç bir şərait yox idi. Məsciddə eyni vaxtda maksimum 500-550 nəfər ibadət edə bilirdi. İbadət edənlərin sayı çox olduğundan, məscidə üz tutanlar məcbur qalıb açıq havada ibadət edirdilər. Odur ki, qəsəbədə daha müasir və geniş məscid kompleksinin tikintisinə ehtiyac yaranmışdı. Məhz Prezident İlham Əliyevin tapşırığına əsasən, məscid kompleksi üçün müasir konsepsiya hazırlandı və yeni bina inşa olundu.

Məscidi ziyarət edən Prezidentə və Mehriban xanıma məlumat verildi ki, bundan sonra məsciddə, eyni zamanda, 1800 nəfərin ibadət etməsi mümkün olacaq. Yeni məscid kompleksində kişilərin və qadınların ibadəti üçün bütün zəruri şərait yaradılıb. Kompleksin inşası zamanı Abşeron məscidlərinin memarlıq üslubuna uyğun elementlərdən istifadə olunub. Buraya ağac materialından hazırlanmış şəbəkələr də daxildir. Məscid kompleksinin diametri 4 metr və hündürlüyü 42 metr olan iki minarə və hündürlüyü 25 metr olan günbəz bəzəyir. Kompleksə dindarların dəstəmaz alması, dini ayinlərin keçirilməsi üçün xüsusi binalar da daxildir. Məsciddə mərkəzləşdirilmiş havalandırma sistemi yaradılıb, ətraf ərazi yaşıllaşdırılıb. Yeni Günəşli qəsəbəsində ”Xanım Fatimeyi Zəhra” məscidinin müasir kompleksinin istifadəyə verilməsi bir daha sübut edir ki, islam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ölkəmizdə dövlət siyasətinin vacib tərkib hissələrindəndir.

**Cənab Prezident və Mehriban xanımın yeni inşa edilmiş ”Xanım Fatimeyi-Zəhra” məscidini ziyarət etməsini yüksək dəyərləndirən ”Mənəvi İrsin Təbliği” İctimai Birliyinin sədri Sevinc Əzimbəyli qeyd etdi ki, bu ziyarət ölkədə islam dini və islam mədəniyyətinin təəssübkeşinin Azərbaycan dövləti olduğunu sübut edir:**

*“Tarixi-dini abidələrimizin, o cümlədən məscid, kilsə, sinaqoqların bərpası və yenidən qurulması, yeni ibadət evlərinin inşası Azərbaycan dövlətinin həyata keçirdiyi tolerant siyasətin tərkib hissəsidir”*

- Biz bunu cənab Prezidentin timsalında görürük. Ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın timsalında görürük. Cənab Prezident də, Mehriban xanım da səfər etdikləri yerlərdə mütləq dini ocaqları ziyarət edirlər. İndiyədək Prezident Şuşaya neçə dəfə səfər edibsə, həmişə də məscidə gedib, həm də dini qaydalara, islam əxlaqına riayət edərək. Prezidentin, Mehriban xanımın bu davranışları nəinki müsəlman əhalisi, kimliyindən, hansı dinə mənsubluğundan asılı olmayaraq hər bir insan üçün nümunədir. Prezident bununla dini dəyərlərə verdiyi yüksək qiyməti, həssaslığı nümayiş etdirir. Örnək sərgiləyir. Eyni həssaslığı biz kilsələrə, qeyri-islam ibadət yerlərinə münasibətdə də görürük. Bütün bunlar Azərbaycan dövlətinin Prezident və birinci xanımın timsalında dini dəyərlərin hamisi, qayğıkeşi olduğunu göstərir.

**S.Əzimbəyli xatırlatdı ki, işğaldan azad edilmiş ərazilərimizdə də Azərbaycan dövləti islam tarixi-memarlıq abidələri ilə yanaşı, məbədlərin, kilsələrin bərpasını da həyata keçirir:**

- Bilirsiniz ki, ötən ilin may ayında Şuşada Prezident tərəfindən yeni məscid kompleksinin təməli qoyuldu. Bu məscid regionda ən böyük, ən hündür məscid olacaq. Məscid, layihədə əks olunduğu kimi, Şuşanın noyabrın - 11-ci ayın 8-də azad edilməsini və Zəfər Gününü simvolizə edir. Şəhərin yuxarı hissəsində yerləşəcək məscid bütün Şuşaya hakim olacaq. Şuşada vaxtilə işğalçıların dağıtdığı Yuxarı Gövhər Ağa və Aşağı Gövhər Ağa məscidləri, o cümlədən qədim Qazançı kilsəsi də bərpa ediləcək. Tarixi-dini abidələrimizin, o cümlədən məscid, kilsə, sinaqoqların bərpası və yenidən qurulması, yeni ibadət evlərinin inşası Azərbaycan dövlətinin həyata keçirdiyi tolerant siyasətin tərkib hissəsidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Mürəkkəb əməliyyatlara da hazırıq

## Naxçıvandakı təlimlər peşəkar hazırlıq məşqidir

**”Hərbidə hədəflərin xarakterinə uyğun olaraq adekvat zərbələrin endirilməsi təcrübəsi göstərir ki, hava hücumundan müdafiə sistemləri daha çox aviazərbələr vasitəsilə məhv edilir”.**

Bunu siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert bildirib ki, İkinci Qarabağ Müharibəsinin gedişatında Azərbaycan Ordusu Ermənistanın zenit-raket komplekslərini ən müasir silahlarla darmadağın etmişdi: ”İndi həmin texnikaların cəmləşdiyi ərazini hərbi qəbiristanlıq kimi qələmə vermək olar, metal yığını kimi qalan silahlar Azərbaycanın arsenalında olan ən müasir silahların (”Bayraktar”, ”Harop”, lazer silahlar və sair) vurduğu damğaları üzərlərində daşıyırlar. Bəzən isə ballistik raketlərin və ya hava hücumundan müdafiə sistemlərinin yararsız hala salınması üçün aviazərbələr münasib versiya kimi nəzərdən keçirilmir. Çünki elə strateji nöqtələr olur ki, oranı böyük partlayış dalğası ilə məhv etmək məqbul sayılmır. Məsələn, yaşayış məntəqəsinə yaxın ərazilərdə mülki itki olmasının qarşısının alınması üçün aviazərbə ikinci plan kimi nəzərdən keçirilir. Yaxud hava hücumundan müdafiə sistemlərinin idarəetmə məntəqəsindəki terrorçuların sağ ələ keçirilməsi əsas hədəf kimi qarşıya qoyula bilər. Belə mürəkkəb situasiyalardan yalnız xüsusi təyinatlı qüvvələrin peşəkarlığına müraciət edilir”.

A.Kərimov qeyd edib ki, Naxçıvanda Əlahiddə Ümumqoşun Orduda xüsusi təyinatlı qrupların təlimi də belə əməliyyatlar üçün peşəkar hazırlıq məşqidir: ”Müdafiə Nazirliyinin məlumatına əsasən, təlimin senarisində xüsusi təyinatlı qruplara strateji obyektlərimizi və hava məkanımızı hədəf alan şərti düşmənin hava hücumundan müdafiə sisteminin məhv edilməsi tapşırığı verilib. Diqqət çəkiləcək məqamlardan biri isə budur ki, təlim maksimum dərəcədə real döyüş şərtlərinə yaxınlaşdırılıb. Belə təlimlərdə məqsəd: - partlayışlar olmadan terrorçuların zərərsizləşdirilməsi, sağ ələ keçirilənlərdən əhəmiyyətli məlumatların öyrənilməsi, zenit-raket komplekslərinin bahalı mərmi atılmadan, sadə üsulla məhv edilməsidir. Təlimi Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri də izləyib”.

**İsmayıl**

# 100 faiz istehsal etsək də, yenə taxılın qiyməti bahalaşacaq



## “Çünki biz də dünyanın bir parçasıyıq, iqtisadi qanunlar bunu tələb edir”

**”Azərbaycanın illik buğda tələbatı 3.2 - 3.3 milyon tondur. Azərbaycanın buğda ilə özünütəminat səviyyəsi isə 60 faizə yaxındır”.**

Bu barədə millət vəkili Kamal Cəfərov deyib.

Deputat bildirib ki, Azərbaycanın buğda idxal etdiyi əsas ölkələr isə Rusiya, Qazaxıstan və Ukraynadır: ”Rəsmi məlumatlara əsasən, 1 ton buğdanın ölkəyə orta idxal qiyməti 2020-ci il üçün 214 dollar, 2021-ci il üçün isə 283 dollar olub. Buğdanın idxal qiyməti ortalama 1 il ərzində 70 dollar qalxıb. Buğdadan hazırlanan nemətlər, o cümlədən çörək, xüsusilə Azərbaycan xalqı üçün həm mənəvi, həm də maddi baxımdan həssas məsələdir. Bəs, hökumət buğda ilə özünütəminatı 100 faizə çatdıra bilərmi? Çatdırarsa, çörəyin qiyməti neçəyə olar? Azərbaycanda əkin üçün yararlı olan 1.7 milyon hektar sahə var. Əkin üçün yararlı olan torpaqların hamısına taxıl səpmək olmaz, aqronomik həddi var. Aqrar Tədqiqatlar Mərkəzinin məlumatına əsasən, onsuz da bu həddi keçmişik. Bütün dünyada olduğu kimi, quraqlıq və iqlim dəyişikliyi də bu prosesə mənfi təsir göstərir. Digər bir məqam ondan ibarətdir ki, ölkədə istehsal olunan taxılın böyük hissəsi yem məqsədləri üçün istifadə olunur. Azərbaycanda fermerlərə yem üçün taxılın yetişdirilməsi daha sərfəlidir. Çünki həmin yemi saxladığı malqara üçün istifadə edir və ya istifadə edənlərə satır. Elə ona görə də mal ətinin 85 faizi, qoyun ətinin 98 faizi, südün 96 faizi, quş ətinin isə 54 faizi yerli fermerlər tərəfindən istehsal olunur”.

**Parlament üzvü vurğulayıb ki, özümüzü 100 faizə yaxın taxılla təmin etsək belə, buğdanın qiyməti bahalaşacaq:** ”Bu, iqtisadi modeldir. Azərbaycan nə qədər taxıl istehsal etsə də, onun qiyməti dünya bazarına uyğun olacaq. Yerli istehsalçı onu ixrac edəcək. Hökumətin hesabatında qeyd edilir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra həyata keçirilən dövlət dəstəyi tədbirləri nəticəsində ölkədə özünü taxılla təmin etmək 30 faizdən 60 faizə çatdırılıb. Dünyada taxıl idxalından asılı olan yeganə ölkə deyilik. Əksər ölkələr, o cümlədən Braziliya, Yaponiya, İsveçrə, Gürcüstan və digər ölkələr buğda idxalından 40 faizdən çox asılıdır. İsrail, Hollandiya və Cənubi Koreya kimi ölkələr 80 faizdən çox buğda idxalından asılıdır. Yəni dünya bazarında taxılın bahalaşması təkcə Azərbaycana deyil, başqa ölkələrə də öz təsirini göstərir”.

**İsmayıl**

# Bakıda mənzillərin qiyməti ucuzlaşıb

**Bakıda həm təkrar, həm də ilkin mənzil bazarında illik ifadədə qiymətlər ucuzlaşıb.**

Bu barədə ”MBA Consulting Group” şirkətindən məlumat verilib.

Lakin aylıq ifadədə qiymətlərdə bahalaşma müşahidə edilib.

2021-ci ilin dekabr ayında təkrar mənzil bazarında mənzillərin orta qiyməti 2,37 faiz bahalaşıb, ötən ilin eyni dövrü ilə müqayisədə isə 1,87 faiz ucuzlaşma müşahidə edilib.

İlkin mənzil bazarında dekabr ayında 0,39 faiz bahalaşma, illik müqayisədə isə 8,82 faiz uculaşma qeydə alınıb.



”MBA Consulting Group” şirkətinin direktoru Nüsrət İbrahimov bildirib ki, təkrar mənzil bazarında qiymət ucuzlaşmasının səbəbi köhnə binalara marağın azalmasıdır.

”Köhnə binalarda mənzillərin satışında azalma müşahidə edilir. Köhnə binalarda mənzillər çox çətinliklə satılır. Köhnə binalarda uçuntu riski çox olduğuna görə həm banklar kredit vermirlər, həm də alıcılar maraq göstərmirlər. Buna görə də qiymətlərdə azalma var. (Trend)

İlkin mənzil bazarında isə qiymətlərin ucuzlaşması struktur dəyişikliyi ilə bağldır. Yeni bazara daha çox ucuz ərazilərdən təklif daxil olub, şəhərin mərkəzindən yox, kənar ərazilərdə olan nisbətən ucuz mənzillər təklif edilir ki, bu da ümumilikdə qiymətlərin aşağı düşməsinə səbəb olur”, - deyə N.İbrahimov vurğulayıb.

# İnsanlar pullarını xaricdə xərcləyirlər

## Çünki Azərbaycanda otel qiymətləri fantastikdir



**Turizm sektorunun inkişafına təsir göstərən əsas amillərdən biri də otel və əyləncə mərkəzləridir. Səyahət zamanı turistlər demək olar ki, öncə həmin ölkənin otel qiymətləri ilə tanış olur.**

Azərbaycanda bu sektordakı vəziyyət ürəkaçan deyil. Ölkəmizdəki yerli və xarici turistlər qiymətlərin bahalığından şikayətlənirlər. Həmçinin vətəndaşlarımız xarici ölkədə istirahət etməyin Azərbaycandan daha ucuz başa gəldiyini söyləyirlər. Qiymət artdıqca müştəri sayında da azalma müşahidə olunur. Otellərin qiymət siyasəti birbaşa ölkənin iqtisadiyyatına da ziyan vurur.

**Məsələ ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Xalid Kərimli bildirib ki, ölkədə turizm obyektləri tikilən zaman xərclər digər ölkələrə nisbətən daha baha olur:** "Çünki biz tikinti və təmir materiallarını, mebel avadanlıqlarını və aksesuarlarını İspaniya, Türkiyə, İtaliya və s. kimi xarici ölkələrdən gətiririk. Hətta işçi qüvvəsinin bir qismi və mütəxəssislər xaricdən gətirilir. Bizdə, həmçinin, otellər tikilən zaman əlavə xərclər və qeyri-qanuni tələblər meydana çıxır. Başqa dövlətlərdə isə otel tikilən zaman, əksinə müəyyən güzəşt və yardımlar olur.

*Ekspert vurğulayıb ki, burada miqyas effekti məsələsi də var:* "Digər ölkələrlə müqayisə etsək, bizdə qış fəsli və ya dəniz mövsümü maksimum 3 ay davam edir. Amma başqa ölkələrdə - İsveçrə, Türkiyə və s. qış turizmi geniş olan ölkələrdə qış turizmi 5-6 ay davam edir. Ona görə də bizdə otellər ilin 12 aylıq xərcini 2-3 ay ərzində çıxarmağa məcburdular. Bu da yüksək qiymətlərin təyin edilməsi ilə nəticələnir.

***Xalid Kərimli: "İstirahət mərkəzləri ilin 12 aylıq xərcini 2-3 ay ərzində çıxarmağa məcburdular"***

***Məhəmmədəli Qəribli: "Bu sahədə böyük hərc-mərclik yaşanır, ciddi nəzarət edilməlidir"***

Başqa səbəb isə müştərilərin və turistlərin sayının az olmasıdır. Otellərin və əyləncə mərkəzlərinin doluluq səviyyəsi aşağıdır. Ümumiyyətlə, Azərbaycan turizm sahəsi zəif inkişaf edib. Buna görə də sahibkar qiymətləri artırmaq məcburiyyətində qalır".

**Jurnalist Məhəmmədəli Qəribli isə bildirib ki, həqiqətən Azərbaycanda turizm qiymətləri, xüsusilə otel qiymətləri fantastik həddədir:** "İnsanlar otellərə, əsasən bayram günlərində müraciət edir. Çünki həmin günlər qeyri-iş günləri olur. Bu da ildə 3-4 dəfə yaşanır. Yeni il ərəfəsində bu bahalığı mən də müşahidə etdim. Ailəmlə birlikdə istirahət hüquqlarımdan faydalanmaq istədim. Amma gördüm ki, çox fantastik qiymətlər var. Otellərdə qiymətlər bir nəfər üçün əyləncə proqramları daxil olmaqla, 300 manat təşkil edirdi. Bu qiymətlər digər xüsusi istəklərə görə daha da arta bilər. Bu çox biabırçı vəziyyətdir. Eyni zamanda istirahət mərkəzlərində göstərilən şəraitlərlə qoyulan qiymətlər üst-üstə düşmür. Sanki xarici bir turizm potensialına əsaslanır. Bir neçə gün əvvəl "Şahdağ" Turizm Kompleksində oldum. Ordakı qiymətlər də çox fantastikdir. Hesab edirəm ki, orada turistlərin aldadılması prosesi də baş verir. Məsələn, xizək xidməti ilə bağlı müraciət edib, ödəniş etdikdən sonra əraziyə giriş etmək üçün əlavə kart almaq tələb olunur. Təsəvvür edin, bunu bildikdən sonra insan bilmir xizəyi təhvil versin, yoxsa əraziyə daxil olsun. İnsanlar məcbur qalıb, əraziyə giriş edir. Kartın qiyməti də xizək ilə eyni dəyərdədir".

**M.Qəribli hesab edir ki, belə hallar ölkənin iqtisadiyyatına mənfi təsir edir:** "İnsanlar pulu xaricdə xərcləyir. Eyni zamanda biletlər də bahadır. Xarici turistlərin ölkəyə gəlməməsi həm bu səbəbdən, həm də pandemiya səbəbindən çətinləşir. Burada da AZAL-ın monopolis mövqeyi də var".

**Jurnalist hesab edir ki, problemlər tənzimlənməlidir:** "Bununla əlaqəli xüsusi dövlət qurumları və agentliklər var. Onlar bu işə ciddi şəkildə nəzarət etməlidir. Bu işdə hərc-mərclik yaşanır. Yəqin ki, çox insan mənimlə razı olar. Sosial şəbəkədə paylaşdığım videolara yazılan şərhlərdən bunu hiss etmək olur. İnsanlar bildirir ki, dövlətin hesabına yaradılan qurğular ölkənin böyük əksəriyyəti üçün əlçatmazdır. Biz elə etməliyik ki, vətəndaşlar bunlardan yararlana bilsin".

**Çimnaz ŞAHLAR**

## Tofiq Bakıxanov şəxsi əşyalarını muzeyə bağışlayıb



**Azərbaycanın Xalq artisti, "Şöhrət" ordenli bəstəkar Tofiq Bakıxanov öz təşəbbüsü ilə şəxsi əşyalarını AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verib.**

Bu barədə Trend-ə AMEA-dan məlumat verilib.

Bildirilib ki, bəstəkarın şəxsi əşyaları muzeyin Hədiyyələr və xatirə əşyaları fonduna yerləşdirilib.

*Qeyd edək ki, 25 noyabr 2021-ci il tarixində də T.Bakıxanov bir çox şəxsi materiallarını muzeyə təhvil vermişdi.*

## Nazilə şou-biznesin "sandığını açdı"

"Adamın qabı-qaşığı qızıldan, gümüşdəndir"



**"Şou-biznes əslində göstərdiyini yaşamır".**

**"Şərq" xəbər verir ki, bu sözləri şairə Nazilə Səfərli deyib.**

"Astar" "Youtube" kanalının qonağı olan şairə, şou nümayəndələrindən danışıb:

"Lüks göstərir, amma həyatı o deyil. Bu da qarşısındakı adamı qıcıq edir. Şou-biznes nümayəndələri evlərini göstərən zaman bir əttökən gülüş gülürlər ki... Adamın qabı-qaşığı qızıldan, gümüşdəndir. Sən gedib ona 200 manatlıq çay dəsti göstərirsən. Təkcə aşağıya yox, yuxarıya da bax".

**Aygün**

# Qaçırılanlar...

## "Hər addımda uşaqlarımızı təhlükə izləyir"



**2 yaşlı uşaq qaçırılıb. Hadisə dekabrın 29-da Sabunçu rayonunun, Sabunçu qəsəbəsində qeydə alınıb. Qəsəbə ərazisində yerləşən evlərdən birində 2019-cu il təvəllüdlü oğlan uşağının oğurlanması ilə bağlı polisə məlumat daxil olub.**

Hazırda daxil olan məlumat əsasında polis əməkdaşları tərəfindən əməliyyat-axtarış tədbirləri həyata keçirilir. Əvvəllər müəyyən səbəblərə görə, yetkin yaşlı insanlar qaçırılardı. Son zamanlarda azyaşlı uşaqların qaçırılması halları daha çox baş verir. Bunun səbəbi nədir? Məlum halların qarşısının alınması istiqamətində hansı addımlar atılmalıdır?

Vəziyyəti "Şərq"ə izah edən "Sağlam Cəmiyyət Hərəkatı"nın rəhbəri, sosioloq Lalə Mehralı bu cür hadisələrin müxtəlif səbəblərdən qaynaqlandığını bildirib: "Azyaşlı uşaqların qaçırılması son dönəmlərdə genişlənib. 1 ay əvvəl məktəblinin qaçırılmasına cəhd edildi. Nə xoş ki, məktəbli maşından düşüb qaçmağa fürsət tapıb. Başqa bir misal deyim: Bakı kəndlərinin birində bir qız uşağı oğurlanmışdı. Polislər onu diləndirilərkən aşkarlamışdılar. Bu cür hallar bəzən uşağı diləndirmək üçün baş verir".

*Ekspert cəmiyyətin bu məsələ ilə bağlı münasibətinə də toxunub:* "Uşaqların oğurlanması ilə bağlı insanlar tərəfindən şayiələr yayılır. Sosial şəbəkələrdə belə bir fikir dolaşır ki, oğurlanmış uşaqları hər hansı yollarla orqan nəqlinə görə xaricə satırlar. Amma hələ bununla bağlı təsdiqlənmiş bir məlumat yoxdur".

***Lalə Mehralı: "Rəsmi orqanlar geniş açıqlamalar verməli, övladlarımızı qorumağın yollarını göstərməlidir"***

Sosioloq bəzi anaların uşaqların atasını ittiham etdiyini vurğulayıb: "Bəzən də elə olur ki, boşanmış ana uşağının itməsi ilə bağlı polis bölməsinə müraciət edir. Məlum olur ki, uşaq ata tərəfindən aparılıb. Ana isə bu hadisəni oğurlanma faktı kimi qələmə verir".

L.Mehralı bir sıra tədbirlərin görülməsinin vacibliyini qeyd edib: "Hüquq-mühafizə orqanları valideynləri diqqətli olmağa çağırmalıdır. Sırf bu istiqamətdə maarifləndirmə işləri aparılmalı, tövsiyələr verilməlidir. Çünki əksəriyyətimiz işləyən valideynlərik. Uşaqlar bağça, məktəb, məşğələyə və s.-yə gedir. İndi hər addımda uşaqlarımızı təhlükə izləyir. Buna görə də rəsmi orqanlar geniş açıqlamalar verməli, övladlarımızı qorumağın yollarını göstərməlidir".

**Cəmilə ƏZİM**

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

# Nə məktəblər düzələcək, nə bağçalar

## Təyinatlar tanışlıq, rüşvət müqabilində aparılır



**Bir neçə gün öncə Bakı şəhəri 9 nömrəli tam orta məktəbin direktorunun şagirdlərlə uyğun olmayan davranışını əks etdirən videogörüntülər yayılıb.**

Belə ki, videoda göründüyü kimi, direktor hər kəsin içində şagirdlərə əl qaldırıb, onların şəxsiyyətini alçaldıb. Faktla bağlı Nəsimi Rayon Polis İdarəsinin Polis Şöbəsində təhqiqat araşdırmalarına başlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev bildirib ki, DİN məsələdən xəbərdardır: "Ərazi üzrə - Nəsimi RPİ-nin 19-cü Polis Şöbəsində təhqiqat araşdırmaları aparılır. Araşdırmanın nəticəsindən asılı olaraq əmələ hüquqi qiymət veriləcək".

Dünən isə Xəzər rayon Binə qəsəbəsində yerləşən "Fatimə" uşaq bağçasının Esmira adlı direktorunun çəkilişə dəvət etdiyi operatorla kobud rəftarı gündəm olub. O, operatorun pulunu verməmək üçün onu təhqir edib, üstəlik, qardaşının polis mayoru olduğunu deyərək operatoru təhdid edib.

***Əhməd Qəşəmoğlu: "Mən ürək ağrısı ilə deyirəm, hətta tənqidlə dolu sovet dövründə insanları belə vəzifələrə təyin edəndə onların şəxsi keyfiyyətlərini nəzərə alırdılar"***

**Sosioloq-alim Əhməd Qəşəmoğlu vəzifə təyinatlarındakı yanlışlıqlardan "Şərq"ə danışarkən bildirib ki, bizdə məktəb rəhbərliyinə, uşaq bağçalarına əksər şəxslər rüşvət verməklə, ya da hər hansısa bir əlaqələr hesabına təyin olunur:** "Yəni bu insanları təhlil etmirlər ki, onların qabiliyyəti, mənəviyyatı, dünyagörüşü bu vəzifəyə uyğundur, ya yox. Mən ürək ağrısı ilə deyirəm, hətta tənqidlə dolu sovet dövründə insanları belə vəzifələrə təyin edəndə onların şəxsi keyfiyyətlərini nəzərə alırdılar. İndi isə təyinat tanışlıq, rüşvət əsasında olur". Ə.Qəşəmoğlunun fikrincə, artıq hər şey aşkarda baş verir və şəxslər məktəb direktoru, bağça müdiri olmaq üçün nə qədər xərc tələb olunduğunu çox yaxşı bilir: "Bu üsullarla vəzifəyə gələn şəxslər təbii ki, belə davranış sərgiləyəcək. Onlarda hər hansı yüksək keyfiyyətləri axtarmaq da absurddur. Digər tərəfdən, əvvəlki dövrlərdə də bu cür hallar olub, amma gizlədilib. Amma indi informasiya əsri olduğu üçün belə məsələlər olduqca tez yayılır və hər kəs xəbərdar olur". Sosioloq-alimə görə əgər, bu vəzifələrə layiqli adamlar təbii yollarla təyin olunsa, belə hallar da olmaz.

**Günəş Mərd**

# İnformatika üzrə daha 4 medal

## Azercell-in dəstəklədiyi məktəblilərimiz beynəlxalq olimpiadada növbəti uğur qazandı




**Azərbaycan məktəbliləri son illərdə beynəlxalq olimpiadalarda qazandıqları nailiyyətlərin sırasını genişləndiriblər. "Azercell Telekom" MMC-nin dəstəyilə informatika üzrə hazırlıq keçən şagirdlərimiz beynəlxalq bilik yarışmasında 4 bürünc medal əldə ediblər.**

Ölkəmizin təşkilatçılığı ilə onlayn formatda keçirilən Lütfi Zadə Beynəlxalq Olimpiadasına 18 ölkədən 158 məktəbli qatılıb. Yarışda Bakı şəhəri fizika riyaziyyat və informatika təmayüllü liseyin şagirdi Fuad Qarayev, Gəncə şəhəri fizika riyaziyyat və informatika təmayüllü liseyin şagirdi Fidan Hüseynova, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin şagirdi Səid Nəsibov və Balakən rayonu Qazbinə kənd tam orta məktəbin şagirdi Xizri Saxrayev informatika fənni üzrə bürünc medala sahibləniblər.

Xatırladaq ki, 2017-ci ildən etibarən Təhsil Nazirliyinin və İnformatika üzrə Milli Olimpiada komandasının məğrur tərəfdaşı olan "Azercell Telekom" MMC məktəblilərimizin beynəlxalq olimpiadalarda informatika fənni üzrə hazırlığını və iştirakını dəstəkləyir. Hazırlıq prosesinə ölkənin hər yerindən istedadlı şagirdlər cəlb olunur, informatika fənni üzrə aparıcı mütəxəssislər tərəfindən uşaqlara təlimlər keçirilir, zəruri biliklər paylaşılır. Bu proses AR Təhsil İnstitutu və "Azercell Telekom" MMC arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən həyata keçirilir. Azercell-in dəstəyilə hazırlaşan məktəblilərimiz bu müddətdə müxtəlif miqyaslı beynəlxalq olimpiada və müsabiqələrdə 1 qızıl, 7 gümüş və 23 bürünc olmaqla, ümumilikdə 31 medal əldə ediblər.

"Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" şüarını əsas tutaraq, "Azercell Telekom" MMC hər zaman gənclərin inkişafına, İKT sahəsində təhsilə marağın və texnoloji savadlılığın artmasına dəstək olan, eləcə də tələbələri bu istiqamətdə uğurlara təşviq edən layihələrini davam etdirəcək. "Azercell Telekom" MMC məktəblilərimizi yüksək nailiyyətlər münasibətilə təbrik edir, qarşıdakı yarışmalarda daha böyük qələbələr arzulayır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 18




## İldə 500 min ədəd...

### Azərbaycanda ağıllı arı yeşikləri istehsal ediləcək

**Azərbaycanda ağıllı arı yeşikləri istehsal ediləcək.**
Bu barədə AMEA Yüksək Texnologiyalar Parkından məlumat verilib. İstehsalı planlaşdırılan "Smart" arı yeşiklərinə temperatur, rütubət, işıq, atmosfer təzyiqini ölçən sensorlar, məhsulun həcmini ölçəcək tərəzi yerləşdiriləcək, yeşiklərin yerləşmə və açılıb-bağlanma ilə bağlı məlumatları fermerə ötürəcək proqram təminatı hazırlanacaq.

"İlkin mərhələdə 20 nəfər heyətlə işə başlanılması planlaşdırılır. İldə 500 min ədəd ağıllı yeşiyin istehsalı planlaşdırılır. Bu isə işğaldan azad edilən bölgələrdə yeni innovativ texnologiyaların tətbiqi ilə arıçılığı intensiv yollarla qısa müddətdə inkişaf etdirməyə imkan yaradacaq", - deyə məlumatda qeyd olunub.

## Qorxulu ehtimal doğruldu

### İngiltərədə bir nəfər "quş qripi"nə yoluxub



**İngiltərədə başlayan "quş qripi" epidemiyası ilə bağlı qorxulu ehtimal özünü doğrultdu. Bu, İngiltərədə aşkarlanan ilk insan yoluxmasıdır.**
Sözügedən şəxs karantinə alınıb. Məsələ ilə bağlı ÜST-lə əlaqə saxlandığı açıqlanıb.

"Şərq" "CNNTÜRK"ə istinadən xəbər verir ki, İngiltərənin cənub-qərbində bir nəfərdə "quş qripi" aşkarlanıb. Xəstəliyə səbəb olan quşlar məhv edilib. Əlavə laboratoriya analizləri virusun quşlarda tapılan "H5" tipli olduğunu göstərib. Sağlamlıq Təhlükəsizliyi Agentliyi (HSA) mövzu ilə bağlı şərh verib: "Yoluxmuş şəxs infeksiyanı uzun müddət evlərində və ətrafında saxladıqları çox sayda xəstə quşlarla yaxın və müntəzəm təmasda olduqdan sonra "qazanıb".

STA sözügedən obyekti ziyarət edənlər də daxil olmaqla, bütün təmasların araşdırıldığını vurğulayıb: "İnfeksiyanın başqalarına keçdiyinə dair heç bir sübut yoxdur. Hazırda şəxsin vəziyyəti yaxşıdır və özünü təcrid edir".

**Cəmilə ƏZİM**



# Möcüzə...

### Dəfnə aparılan körpə yolda dirildi və ağladı

**Türkiyənin Adana bölgəsində qeyri-adi hadisə yaşanıb. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Adanın Yüreğir əyalətində yaşayan 32 yaşlı Məlek Sərt hamiləliyinin 5-ci ayında sancı və qanama şikayətiylə Yüreğir Dövlət Xəstəxanasına yerləşdirilib. Bir müddət müalicə aldıqdan sonra xəstəxanadan evə buraxılıb.**

6 gün sonra qadının vəziyyəti yenidən ağırlaşıb. Qadında erkən doğuş baş verib, 5 aylıq körpə ana bətnindən çıxarılıb. Xəstəxana körpənin öldüyünü bildirib və ailəyə ölüm haqqında arayış təqdim olunub. Körpə kəfənlənib və Mələk-Həsən Sərt cütlüyünə təslim edilib. Körpənin atası Həsən Sərt cənazəni Herekli Məhəllələsindəki qəbiristanlığa aparıb. Lakin yolda ağlamaq səsi eşidib. Heyrət edən ata cənazəyə yaxınlaşanda ağlamaq səsinin oradan gəldiyini duyub. Kəfəni açanda körpənin tərpəndiyini görüb. Körpənin ürəyi döyünürmüş. Dərhal təcili yardım çağırılıb. Körpə Adana Şəhər Tədris və Araşdırma Xəstəxanasına aparılıb, reanimasiya şöbəsində müalicəsinə başlanıbıb. Ailə isə Yüreğir Dövlət Xəstəxanasının verdiyi ölüm haqqında arayışı məhkəməyə təqdim edib. Ailə "bizim körpəmiz sağ ikən ona "öldü" dedilər və qucağımıza verib "aparın, dəfn edin", dedilər. Diri körpəmizi torpağa gömməcəkdik", deyə xəstəxanadan şikayətçi olublar. Lakin kəfəndən qurtulan möcüzə körpə 6 gündən sonra xəstəxanada vəfat edib. Körpənin ölüm səbəbi araşdırılır. Ailə isə bu fikirdədir ki, körpə kəfənlənməsəydi, bəlkə də yaşayacaqdı. Uşaq kəfənlənib deyə nəfəs ala bilməyib, ola bilsin ki, ciyərlərinə hava çatmayıb və ciyərlər funksiyasını itirib.

**Məlahət**





## Müdafiə Nazirliyi icazə verib

### Tank, zirehli texnika və artilleriyalar gündəlik 420 avroya icarəyə verilir



**Serbiyanın Müdafiə Nazirliyi film və fotosessiya fəaliyyətləri üçün Belqraddakı Hərbi Muzeyin müxtəlif əşyalarının icarəyə verilməsinə icazə verib.**

**Azərtac xəbər verir ki, Serbiya ordusunun qəzetində dərc olunan məlumata görə, tank, zirehli texnika və artilleriyalar gündəlik təxminən 420 avroya, hərbi yük maşınları və yolsuzluq avtomobilləri 70 avroya, hərbi geyimlər və bayraqlar isə 85 avroya icarəyə veriləcək. Pulemyotun gündəlik icarəsi 50 avroya, dəbilqələrin 42 avroya, tapançanın 21 avroya mümkün olacaq.**

**Hərbi Muzeydən icarəyə götürüləcək qılınc və ya tüfənglər üçün isə gündəlik təxminən 250 avro ödəniş ediləcək.**

## Hollivud ulduzu üçüncü dəfə ata olacaq



**Hollivud ulduzu Nikolas Keyc üçüncü dəfə ata olmağa hazırlaşır.**

**Axşam.az xəbər verir ki, bu barədə aktyor beşinci həyat yoldaşı Riko Şibata ilə yerli jurnallardan birinə müsahibəsi zamanı danışıb.**

**Bu körpə Nikolasdan fərqli olaraq Riko ilk övladı olacaq.**

**Xatırladaq ki, aktyorun Kristina Fultonla münasibətindən Ueston adlı 31 yaşlı oğlu, keçmiş həyat yoldaşı Elis Kimlə evliliyindən Kal-El Koppola adlı 16 yaşlı oğlu var. Yeni**

***Qeyd edək ki, bu gün N.Keycin 58 yaşı tamam olur.***

## Xəstəxanada qalmaq üçün 15 doz vaksin etdirdi



**Ukraynanın Xarkov şəhər sakini Aleksey Sukaç koronavirusa qarşı 15 doz vaksin etdirib.**

**Axşam.az xəbər verir ki, reyestrlərdə də həmin şəxsin 15 doz qəbul etdiyi təsdiqlənib.**

**Aleksey jurnalistlərə açıqlamasında bildirib ki, daha 10 vaksin də vurduracaq:**

**"Buna məni ailə həkimimiz Oksana İvaşenko sövq edib. O, peyvəndin qarşılığında Xarkov xəstəxanasında pulsuz qalacağımı vəd edib".**

**Jurnalistlər həkim Oksana İvaşenko ilə əlaqə saxlayıb və o, belə bir xəstəsinin olmadığını bildirib.**




# 84 yaşlı hindli 11 peyvənd vurdurub

### 12-cini vurdurarkən yaxalandı

**Hindistanda ağlagəlməz hadisə yaşanıb. 84 yaşlı Brahmdeo Mondal COVİD-19-a qarşı 11 doza peyvənd vurdurub. Bu barədə xəbər "Milliyet.com"da yer alır. Xəbərdə bildirilir ki, Hindistanda peyvənd vurdurmaq məcburi deyil. Ölkə səhiyyəsi vətəndaşlara 2 cür peyvənd təqdim edir.**



Peyvənd seçimini vətəndaşların öhdəsinə buraxır. B.Mondal isə ötən 1 il ərzində 11 doza peyvənd vurdurub. 12-ci dozanı vurdurmaq üçün xəstəxanaya gedən Mondal bu dəfə yaxalanıb. Hindistanın Mandhepura bölgəsində yerləşən xəstəxananın həkimi Amarendra Pratar Shahi deyib ki, 84 yaşlı kişinin 4 ayrı peyvənd mərkəzində 8 doza peyvənd vurdurmasına dair sübutlar var. Mondal bir gündə yarım saat aralıqla 2 doza peyvənd vurdurub. Həkim 84 yaşlı adamın bu qədər peyvəndi necə vurdurduğunun ağlasığmaz olduğunu söyləyib. Hindistan Səhiyyə Nazirliyi də çaşqınlıq içindədir. Ölkədə əhalinin hələ ki, 65 faizinin peyvənd olunduğu bir vaxtda, necə olur ki, bir adama 11 doza peyvənd vurulur? Ola bilsin, kompüter sistemində yanlışlıq baş versin, peyvənd olunanlar barədə məlumatlar sisteme gec yerləşdirilsin. Amma bu insan dəfələrlə artıq peyvənd olunduğunu özü bilir. Buna necə razı olub, necə qəbul edib? 84 yaşlı kişi isə "peyvəndlər səhhətimə çox yaxşı təsir edir. Peyvənddən sonra bel və baş ağrılarım keçib, əvvəlcə əsa ilə gəzirdim, artıq rahat şəkildə yeriyirəm", deyib. "Peyvənd aşiqi" Mondal bilərəkdən çoxsaylı peyvənd vurdurduğunu etiraf edib: "Fərqli hesablar açdırım, peyvənd üçün ayrı-ayrı tibbi mərkəzlərə gedirdim". Belə insanlar da var. Bəziləri peyvənddən qaçır, bəzisi də bilərəkdən çoxsaylı peyvənd vurdurur.

**Məlahət**

## Damarda tromb əmələ gətirən qidalar

### Kişilər daha diqqətli olsun



**50 yaşdan sonra ürək-damar və qan dövranı problemləri, eləcə də varikozu olan şəxslər tromb əmələ gəlməyə meyilli olur. Həkimlər tromba qarşı müalicə, qan durulducu, damar təmizləyici yaza bilər.**

Amma siz trombun sevdiyi qidaları, yeməkləri yeyib, dieta saxlamırsızsa, bu müalicə boşunadır demək olar.

*Medicina.az tromb yaradan qidaları təqdim edir. Tromba meyilli şəxslər bunlardan uzaq dursa yaxşıdır.*

- Çox miqdarda ət, heyvani yağlar, quyruq, qızarmış toyuq, kabab, hisə verilmiş ət, qurumuş ət, kolbasa və s. Xüsusən hər gün və çox miqdarda, bir oturuma yemək elə həmin vaxt trombu tərpədə bilər. Bu qidalar qaraciyər üçün ağırdır. Məhz qaraciyər tromb əmələ gətirən və eləcə onları əridən xüsusi zülalı sintez edir.
- Qəhvə, kofein tərkibli içkilər, energetik içkilər, şokolad - bunlar da tromb əmələ gətirir.
- Bədəndə, qarında qaz, köp yaradan qidalar aşağı ətraflarda qan dövranını yavaşıdır. Ona görə köp yaradan qidalar: alma, qara çörək, pivə, kələm, paxlalılar az yeyin.
- Vitamin K tromb yaratmaq qabiliyyətinə malikdir. Bu vitamin qaraciyərdə, ispanaqda, kahıda olur. Ona görə bunlardan da uzaq durun.
- Ən birinci düşmən isə alkoqol, spirtli içkilər. Bir çox kişilər məhz məclisdə, toyda içki içib, kabab yedikdən sonra tromb tıxanması və ürək tutmasından xəstəxanaya çatdırılırlar. Eyni vaxtda çox miqdarda alkoqol qəbulu tromb əmələ gətirir.

## "Hara gedirsən, Aida?"

### 2021-ci ilin ən yaxşı filmi açıqlandı



**Kinotənqidçilərin resenziyalarının yer aldığı "Metacritic" saytı 2021-ci ilin ən yaxşı 50 filmini açıqlayıb.**

Axşam.az xəbər verir ki, tənqidçilər tərəfindən qiymətləndirilən siyahıya "Hara gedirsən, Aida?" adlı film toplam 97 xalla liderlik edib. Sonucu sırada 83 xalla "Mən sadə insan idim" adlı ekran işi qərarlaşıb.

*Siyahıdakı ilk beşlik isə belədir: "Soul yayı" (96 xal), "Rok" (96 xal), "Kiçik ana" (94 xal), "Yaddaş" (91 xal), "Bu dəfn deyil, dirilmədir" (91 bal).*